Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.

Heydər ƏLİYEV

DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

1 iyun 2018-ci il № 41-44 (9227) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

BU SAYIMIZDA

GƏMİÇİLİYİN XƏZƏR DƏNİZ NEFT DONANMASINA DAHA İKİ GƏMİ DAXİL EDİLİB

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC donanmalarının müasir gəmilərlə yenilənməsinə hər zaman xüsusi diqqət yetirir. Məhz, bunun nəticəsidir ki, hazırda Gəmiçilik Xəzərdə nəqliyyat və ixtisaslaşdırılmış ofşor donanmalarının tərkibindəki gəmilərinin sayına görə aparıcı mövqeyə malikdir.

Səh. 2

GƏMİÇİLİYİN STENDİ QARŞISINDA AYAQ SAXLAYAN ZİYARƏTÇİLƏR AZ DEYİL

"Bakı Ekspo Mərkəzi"ndə 25-ci Beynəlxalq Xəzər Neft və Qaz (Caspian Oil & Gas 2018) sərgisi keçirilir. Əsas istiqamətləri neft hasilatı və enerji resurslarının nəqli sahəsində innovativ texnologiyalar, neft və qazın saxlanması sistemlərinin təmin edilməsi, regionda mövcud və gələcək neft-qaz layihələri və s. olan sərgiyə 300-dən çox şirkət qatılıb.

Səh. 3

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVLƏTÇİLİK TARİXİMİZİN QÜRURVERİCİ SƏHİFƏSİDİR

Mayın 25-də Azərbaycan Dövlət Dəniz Akademiyasının akt zalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş mərasim təşkil edilib.

Səh. 4

QAZAXISTANLI REKTOR ADDA-DA OLUB

Ş. Yesenov adına Qazaxıstan Dövlət Texnologiya və Mühəndislik Universitetinin rektoru B.Axmetovun rəhbərliyi ilə nümayəndə heyəti mayın 15-də Azərbaycan Dövlət Dəniz Akademiyasında olub.

ADDA-nın rektoru Çingiz Əliyevlə görüşdə "İkili diplom" proqramı, müəllimlərin və tələbələrin mübadiləsi, qazaxıstanlı dənizçilərin sertifikatlandırılması və s. mühüm məsələlər müzakirə edilib.

Səh. 5

DƏNİZ NƏQLİYYATI DONANMASINDA "ÜMUMİ HƏYƏCAN" TƏLİMİ KEÇİRİLİB

Gəmiçiliyin Dəniz Nəqliyyatı Donanmasında (DND) bilavasitə Donanma rəisinin tapşırığı və Əməyin mühafizəsi, təhlükəsizlik texnikası və ekologiya (ƏMTTE) şöbəsinin təşəbbüsü ilə DND-nin Fövqəladə Hallar (FH) Komitəsinin sədrini, habelə Mülki Müdafiə (MM) Qərargahının rəisi və MM rəhbərlərini məlumatlandırmaqla günün ikinci yarısında "Yanğın" həyəcan siqnalı verilərək inzibati binada "Həyəcan" təliminə başlanmışdır.

Səh. 6

AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ 160 İLLİYİ ƏRƏFƏSİNDƏ TƏSVİRİ İNCƏSƏNƏT MÜSABİQƏSİ KEÇİRİR

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi 160 illik yubileyi ərəfəsində gənc rəssamlar üçün "Gəmiçilik - 160", "Mənim Xəzərim", "Dəniz cəsurları sevir" mövzularında təsviri incəsənət (rəngkarlıq, heykəltəraşlıq, qrafika) müsabiqəsini elan edir.

Səh. 8

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 444; 2006, № 12, maddə 1029; 2007, № 5, maddə 442, № 6, maddə 562, № 8, maddə 756; 2009, № 12, maddə 948; 2010, № 3, maddə 171; 2012, № 7, maddə 643; 2013, № 3, maddə 214; 2014, № 4, maddə 325; 2015, № 1, maddə 1; 2016, № 1, maddə 7; 2017, № 11, maddə 1961; Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1041-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 4.4-cü maddə əlavə edilsin:

"4.4. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma öz fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi siyahıda nəzərdə tutulmuş lisenziya və icazələrin alınması tələb olunmur.".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 3 aprel 2018-ci il.

"Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1057-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 541 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1057-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziya və icazələrin siyahısını, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, iki ay müddətində təsdiq etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 541 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 478; 2005, № 2, maddə 69; 2006, № 12, maddə 1053; 2007, № 6, maddə 601; 2012, № 12, maddə 1239; 2014, № 9, maddə 1027; 2016, № 5, maddə 877; 2017, № 8, maddə 1521) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci–səkkizinci abzaslar, müvafiq olaraq, 2.2–2.8-ci bəndlər hesab edilsin;

3.2. aşağıdakı məzmunda 2.1-ci bənd əlavə edilsin:

"2.1. Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 4.4-cü maddəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.3. 2.2-ci bənddə "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin" sözləri "həmin Məcəllənin 4.4-cü maddəsində (ikinci halda)," sözləri ilə əvəz edilsin;

3.4. 2.8-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.9-cu bənd əlavə edilsin:

"2.9. həmin Məcəllənin 4.4-cü maddəsində "qurum" dedikdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti, o cümlədən onun strukturuna daxil olan qurumlar nəzərdə tutulur.".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 may 2018-ci il.

Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında əsasnamələrin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 327; 2008, № 8, maddə 720, № 11, maddələr 970, 980; 2009, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2012, № 7, maddə 678; 2013, № 6, maddə 655; 2014, № 5, maddə 474, № 12, maddə 1574; 2015, № 9, maddə 1008) ləğv edilsin.

4. "Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 aprel tarixli 565 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 327; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2014, № 12, maddə 1572; 2017, № 11, maddə 2014) ləğv edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 may 2018-ci il.

SƏNGƏÇAL TERMİNALINDA CƏNUB QAZ DƏHLİZİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

PREZİDENT İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak edib.

Həmçinin XXV yubiley Beynəlxalq Neft və Qaz sərgisinin də açılışı olub, mərasim sərginin keçirildiyi Bakı Ekspo Mərkəzində canlı yayımlanıb.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

Prezident İlham Əliyevin nitqi

-Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ölkəmizin tarixində çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Cənub Qaz Dəhlizinin rəsmi açılışı günüdür. Bu gün münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Biz bu günü burada – Səngəçal terminalının ərazisində qeyd edirik. Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminalıdır və məhz burada dörd il bundan əvvəl Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Eyni zamanda, onu da qeyd etməliyəm ki, bu gün Bakı Ekspo Mərkəzində XXV Xəzər Neft-Qaz Sərgisi öz işinə başlayıb və sərgidə iştirak edən yoldaşlar bu gün bu mərasimdə də iştirak etmiş kimi sayıla bilərlər. Mən onları da salamlayıram. Bildirmək istəyirəm ki,

25 il ərzində ilk dəfədir ki, Xəzər Neft-Qaz Sərgisinin açılışı sərgi yerində yox, Səngəçal terminalında baş verir.

Xəzər Neft-Qaz Sərgisinin Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olmuşdur. İlk sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və riskli dövlət kimi sayılırdı. Bu sərginin Azərbaycana investisiya qoyuluşu üçün çox önəmli rolu olmuşdur. Ötən 25 il ərzində bu sərgi dünya miqyasında çox mötəbər sərgi kimi tanınır və sərgidə iştirak edən şirkətlərin, ölkələrin sayı getdikcə artmaqdadır.

Qeyd etdiyim kimi, 4 il bundan əvvəl bu ərazidə Cənub Qaz Dəhlizinin təməli qoyulub. O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki, bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir.

(Davamı 3-cü səhifədə)

Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi haqqında

Ə S A S N A M Ə

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli Fərmanı ilə təsdiq edilmişdir

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi (bundan sonra – Agentlik) Azərbaycan Respublikasının ərazisində dəniz nəqliyyatı sahəsində (bundan sonra – müvafiq sahədə) dövlət nəzarətini və tənzimləməsini həyata keçirən icra hakimiyyəti orqanıdır.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (bundan sonra – Nazirlik) hüquqi aktlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri və Azərbaycan, həmçinin ingilis dillərində öz adı həkk olunmuş möhürü, rəsmi emblemi, özünün xüsusi bayrağı, müvafiq ştampları və blankları vardır.

1.5. Agentlik işçilərinin xüsusi xidməti geyim forması vardır.

1.6. Agentliyin saxlanma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunla nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Agentlik Bakı şəhərində yerləşir.

2. Agentliyin fəaliyyət istiqamətləri

2.0. Agentlik aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.0.1. müvafiq sahədə dövlət siyasətinin hazırlanması ilə bağlı Nazirliyə təkliflər verir və bu sahədə müəyyən olunmuş siyasətin həyata keçirilməsində iştirak edir;

2.0.2. müvafiq sahənin inkişafını təmin edir.

3. Agentliyin vəzifələri

3.0. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.0.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

3.0.2. dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini təmin etmək;

3.0.3. müvafiq sahədə dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi barədə Nazirliyə təkliflər vermək;

3.0.4. müvafiq sahəyə aid beynəlxalq müqavilələrlə bağlı danışıqlarda iştirak etmək;

3.0.5. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək;

3.0.6. dəniz nəqliyyatı sahəsində beynəlxalq müqavilələrə uyğun olaraq sənədlər, gəmi agenti xidmətlərinin göstərilməsi üçün sertifikat, dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən təlim-tədris mərkəzlərinə, habelə fiziki və hüquqi şəxslərə onların fəaliyyətinin beynəlxalq konvensiyaların tələblərinə uyğun olması barədə şəhadətnamə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallarda ixrac nəzarətinə düşən mallara (işlərə, xidmətlərə, əqli fəaliyyətin nəticələrinə) icazə vermək, icazə şərtlərinə əməl edilməsinə nəzarət etmək;

3.0.7. Azərbaycan Respublikasının ərazisində liman nəzarətini və Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərə münasibətdə bayraq nəzarətini tabeliyindəki qurum vasitəsilə təmin etmək;

3.0.8. dəniz üzgüçülüyünün təhlükəsizlik sistemini təşkil etmək və Azərbaycan Respublikasının ərazisində dəniz üzgüçülüyü qaydalarına nəzarəti tabeliyindəki qurum vasitəsilə təmin etmək;

3.0.9. Azərbaycan Respublikasının ərazisində dəniz üzgüçülüyündə bələdçi xidmətinin fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.0.10. tabeliyindəki qurum vasitəsilə Azərbaycan Respublikasının ərazisində gəmilərin üzmə rejimini təşkil etmək və həmin rejimə riayət edilməsinə nəzarəti həyata keçirmək, gəmilərin hərəkətini tənzimləmək məqsədi ilə gəmi sürücülərinə icrası məcburi olan göstərişlər vermək;

3.0.11. müvafiq sahənin sabit fəaliyyətinin təmin olunması üçün tədbirlər görmək;

3.0.12. dənizdə batmış üzmə vasitələrinin (əmlakı ilə birlikdə) çıxarılmasını təşkil etmək və onların mühafizə olunması üçün tədbirlər görmək;

3.0.13. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərin (kiçikhəcmli gəmilər istisna olmaqla) dövlət qeydiyyatını və dövlət reyestrini aparmaq, habelə gəmilərdə texniki müayinə aparmaq, gəmilərdən tonnaj yığımını təmin etmək və gəmi sənədlərini vermək;

3.0.14. Azərbaycan Respublikasında təsnifat cəmiyyətlərinin fəaliyyət göstərməsinə razılıq vermək və onların fəaliyyətinə nəzarət etmək;

3.0.15. gəmilərə çağırış siqnallarının, gəmi radiostansiyasının fərdi çağırış nömrələrinin və gəmi peyk rabitə stansiyasının identifikasiya nömrələri daxil olmaqla müvafiq sənədlərin verilməsi üçün tədbirlər görülməsini tabeliyindəki qurum vasitəsilə təmin etmək;

3.0.16. gəmilərin saxlanılmasına və istismarına dair texniki tələb və qaydalara dair təklifləri Nazirliyə təqdim etmək;

3.0.17. dənizçilik rütbələrinin verilməsi qaydalarına dair təkliflərini Nazirliyə təqdim etmək, dənizçilərə ixtisas şəhadətnamələri (diplomlar) və dənizçinin şəxsiyyət sənədlərini vermək;

3.0.18. gəmilərə və ya inşa edilməkdə olan gəmilərə mülkiyyət hüququnu, gəmilərin və ya inşa edilməkdə olan gəmilərin və onlar üzərində hüquqların ipotekasını dövlət qeydiyyatına almaq və müvafiq sənədlər vermək;

3.0.19. müvafiq sahəyə aid obyektlərdə qəza hallarını araşdırmaq və onların qeydiyyatını aparmaq;

3.0.20. dəniz yollarında naviqasiya təminatına nəzarəti, Azərbaycan Respublikasının ərazi sularında Gəmilərin Hərəkətini İdarəetmə Sisteminin (GHİS) təşkilini tabeliyindəki qurum vasitəsilə təmin etmək;

3.0.21. dəniz nəqliyyatı sahəsinə aid olan obyektlərin, gəmilərin, texniki gəmi avadanlıqlarının və digər qurğuların tikintisi, istismarı, təmiri və təchizatı ilə əlaqədar tələblərə dair təkliflərini Nazirliyə təqdim etmək;

3.0.22. dəniz yollarını, habelə dəniz yollarında və sahildə naviqasiya avadanlıqlarının quraşdırılması yerlərini müəyyən etmək;

3.0.23. müvafiq sahəyə aid olan obyektlərin (limanlar, yükaşırma terminalları) inşasının, yenidən qurulmasının və texniki baxımdan müasirləşdirilməsinin texniki göstəricilərini yoxlamaq və rəy vermək;

3.0.24. limanlar və yükaşırma terminalları daxil olmaqla dəniz nəqliyyatı obyektlərinin tikintisi ilə bağlı rəyini Nazirliyə təqdim etmək, habelə limanda inşaat işlərinin, hidrotexniki və digər işlərin görülməsinə icazə vermək;

3.0.25. limanların dövlət reyestrinin aparılmasını təmin etmək;

3.0.26. limanların fəaliyyətə başlamağa hazırlıq səviyyəsini yoxlamaq;

3.0.27. limanların müvəqqəti bağlı elan edilməsinə dair qərar qəbul etmək;

3.0.28. limanların bağlı elan edilməsinə dair vəsatətlə çıxış etmək;

3.0.29. tabeliyindəki qurum tərəfindən dəniz üzgüçülüyünün təhlükəsizliyi ilə bağlı xidmətlər (naviqasiya, bələdçi, kanal, lövbər, mayak, gəmi yığımı və s.) göstərilməsinə görə müəyyən olunmuş tariflərə əsasən yığımların təmin olunmasına nəzarət etmək;

3.0.30. limanlarda dəniz üzgüçülüyünün təhlükəsizliyi, dənizdə insan həyatının və sağlamlığının qorunması, dəniz ətraf mühitinin mühafizəsi ilə bağlı tədbirlər görmək, icrası məcburi olan göstərişlər vermək;

3.0.31. limanlara "Gəmi və liman vasitələrinin mühafizəsi haqqında Beynəlxalq Məcəllə"də nəzərdə tutulmuş sənədlərin verilməsini təmin etmək;

3.0.32. mülkiyyət növündən və milli mənsubiyyətindən (Dövlət bayrağı) asılı olmayaraq, gəmilərdən və obyektlərdən neft və neft məhsullarının və digər zərərli maddələrin dənizə axıdılmasının qarşısını almaq üçün tədbirlər görmək;

3.0.33. Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda qəzaya uğramış insanların axtarışı və xilas edilməsi üçün Azərbaycan Respublikasının, eləcə də xarici dövlətlərin axtarış və xilasetmə işlərinə məsul olan dəniz və aviasiya qəza-xilasetmə xidmətlərinin həyata keçirdiyi zəruri tədbirlərdə iştirak etmək;

3.0.34. gəmi və dəniz nəqliyyatının digər obyektləri ilə kriptoqrafik rabitənin təşkilində iştirak etmək;

3.0.35. mülkiyyət növündən asılı olmayaraq bütün gəmilərin və digər üzən qurğuların adlandırılması (kiçikhəcmli gəmilər istisna olmaqla) qaydalarını, habelə Azərbaycan Respublikasının ərazi sularında üzmə qaydalarını Nazirliyə təqdim etmək;

3.0.36. dəniz üzgüçülüyünün təhlükəsizliyi, dənizdə insan həyatının və sağlamlığının qorunması, dəniz mühitinin mühafizəsi sahəsində normativ hüquqi aktların layihələrini Nazirliyə təqdim etmək;

3.0.37. su nəqliyyatı vasitələri sərnişinlərinin fərdi qəza sığortası üzrə "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada sığortalanmasına nəzarət etmək;

3.0.38. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.0.39. müvafiq sahədə əməyin mühafizəsi tədbirlərinin həyata keçirilməsində iştirak etmək;

3.0.40. müvafiq sahədə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.0.41. müvafiq sahəyə aid qanunvericiliyin pozulmasına görə şəxslərin məsuliyyətə cəlb edilməsi üçün tədbirlər görmək;

3.0.42. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.0.43. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqi ilə bağlı təklif vermək;

3.0.44. müvafiq sahəyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.0.45. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.0.46. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.0.47. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq.

4. Agentliyin hüquqları

4.0. Agentliyin öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.0.1. müvafiq sahəyə aid normativ hüquqi aktların və sahə standartlarının layihəsini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

4.0.2. Azərbaycan Respublikasının müvafiq sahə üzrə beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə Nazirliyə təkliflər vermək;

4.0.3. dövlət qurumlarına və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə müvafiq sahə üzrə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.4. müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

4.0.5. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahədə tədqiqat işləri görmək, təkliflər vermək;

4.0.6. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

4.0.7. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.0.8. gəmi heyəti üzvlərinə verilmiş şəhadətnamələri (diplomları) ləğv etmək və ya onların qüvvədə olmasını dayandırmaq;

4.0.9. xarici dövlətin bayrağı altında üzən gəmilər vasitəsilə kabotaja icazə verilməsi məsələlərini həll etmək;

4.0.10. müvafiq sahədə baş verən qəza hadisələrinin və onların baş verməsi səbəblərinin araşdırılmasını, habelə təhqiqatını liman kapitanlarının və gəmi sahiblərinin aparması üçün zəruri tədbirlər görmək;

4.0.11. müvafiq sahədə işçi qruplar və komissiyalar yaratmaq;

4.0.12. müvafiq sahə ilə bağlı konfranslar, seminarlar və digər tədbirlər keçirmək;

4.0.13. dəniz üzgüçülüyünün təhlükəsizliyinə və sahil zonasının çirklənməməsinə dair tələblərin pozulması ilə bağlı tədbirlər görmək;

4.0.14. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində mülkiyyət növündən və milli mənsubiyyətindən (Dövlət bayrağı) asılı olmayaraq bütün dəniz gəmilərinə, liman və digər dəniz nəqliyyatı obyektlərinə maneəsiz daxil olmaq;

4.0.15. müvafiq sertifikatların (diplomların) verilməsi üzrə ixtisas komissiyaları yaratmaq, onların fəaliyyətinə rəhbərlik etmək, habelə aidiyyəti təşkilatları cəlb etməklə müvafiq sahədə birgə komissiyaların işini təşkil etmək;

4.0.16. dəniz və digər nəqliyyat növləri arasında nəqliyyat qovşaqlarında yük sahibləri ilə, operatorlarla, ekspeditorlarla, agentlik və digər təşkilatlarla qarşılıqlı münasibətlərin təkmilləşdirilməsinə dair aidiyyəti üzrə təkliflər vermək.

5. Agentliyin fəaliyyətinin təşkili

5.1. Agentlik öz fəaliyyətini Aparatı və onun strukturuna daxil olan qurumlar və tabeliyindəki digər qurumlar vasitəsilə həyata keçirir.

5.2. Agentliyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir.

5.3. Agentliyin direktoru bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin icrasına görə şəxsən məsuliyyət daşıyır.

5.4. Agentlik direktorunun nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri ilə razılaşdırmaqla, Agentliyin direktoru tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır.

5.5. Agentliyin Aparatının və tabeliyindəki qurumların strukturunu, ştat cədvəlini və xərclər smetasını müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Nazirlik təsdiq edir.

5.6. Agentliyin direktoru:

5.6.1. Agentliyə rəhbərlik edir və onun fəaliyyətini təşkil edir;

5.6.2. müavinləri arasında vəzifə bölgüsü aparır;

5.6.3. Agentliyin Aparatının və tabeliyindəki qurumlarının strukturunu, ştat cədvəlini və xərclər smetasını müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində təsdiq edilmək üçün Nazirliyə təqdim edir;

5.6.4. Agentliyə dövlət büdcəsindən ayrılmış vəsaitin xərclənməsinə dair hesabatları Nazirliyə təqdim edir;

5.6.5. Agentliyin işçilərini (Agentlik direktorunun müavinlərini, Agentliyin baş mühasibini, Aparatının struktur bölmələrinin və tabeliyindəki qurumların rəhbərlərini – nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri ilə razılaşdırmaqla) vəzifəyə təyin və vəzifədən azad edir, onların barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.6.6. dəniz nəqliyyatı sahəsində çalışan mütəxəssisləri "Donanmanın fəxri işçisi" döş nişanı ilə təltif edir;

5.6.7. Agentliyin Aparatının, tabeliyindəki qurumların fəaliyyətinə dair əmr və göstərişlər verir;

5.6.8. bütün dövlət qurumları, yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Agentliyi təmsil edir;

5.6.9. Agentliyin Aparatının struktur bölmələrinin və tabeliyindəki qurumların əsasnamələrinin və ya nizamnamələrinin layihələrini hazırlayır və Nazirliyə təqdim edir;

5.6.10. Agentliyin fəaliyyəti barədə Nazirliyin müəyyən etdiyi qaydada və müddətlərdə Nazirliyə hesabat verir.

GƏMİÇİLİYİN XƏZƏR DƏNİZ NEFT DONANMASINA DAHA İKİ GƏMİ DAXİL EDİLİB

konteyner, borular və bu kimi digər müxtəlif yükləri qəbul etmək üçün geniş göyərtəyə və böyük həcmli yük tanklarına malikdir.

Hər iki gəminin uzunluğu 60, eni 16 metr, sürəti 13 uzeldir. "Mərdəkan"-gəmisinin dedveyti 1700, dartma qüvvəsi 81, "Şüvəlan" gəmisinin dedveyti 1810, dartma qüvvəsi 75 tondur. Onların texniki xüsusiyyətləri sərt hava şəraitində dənizdəki platformalara yan almadan yükləmə-boşaltma əməliyyatlarını təhlükəsiz şəraitdə yerinə yetirməyə imkan verir. Gəmilərdə quraşdırılan müasir yanğınsöndürmə avadanlığı isə dəniz obyektlərində yanğın baş verərsə, bu zaman hadisəyə ilkin müdaxilə etməyə şərait yaradır.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC donanmalarının müasir gəmilərlə yenilənməsinə hər zaman xüsusi diqqət yetirir. Məhz, bunun nəticəsidir ki, hazırda Gəmiçilik Xəzərdə nəqliyyat və ixtisaslaşdırılmış ofşor donanmalarının tərkibindəki gəmilərinin sayına görə aparıcı mövqeyə malikdir.

Qeyd edək ki, Gəmiçilik donanmalarının müasirləşdirilməsi və böyüməsi istiqamətində tədbirləri bundan sonra da davam etdirəcək.

Bu günlərdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasının balansına daha iki gəmi daxil edilib.

"Mərdəkan" və "Şüvəlan" adlı təchizat-yedək gəmiləri müasir avadanlıqla, o cümlədən DP1 dayanıqlılıq sistemi ilə təchiz olunub. Sözügedən üzən vasitələrin müxtəlif növ yüklərin dəniz platformalarına çatdırılmasında və yedəklənmə əməliyyatlarında istismarı nəzərdə tutulub.

Təchizat-yedək gəmiləri yanacaq, içməli su, qazma məhlulları, quru yük,

XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU ÜZRƏ XÜSUSİ İŞÇİ QRUPUNUN NÖVBƏTİ İCLASI DA QAZAXISTANDA OLACAQ

Astanada Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın hazırlanması üzrə Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupunun növbəti iclası keçirilib.

Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistanın nümayəndə heyətlərinin qatıldığı iclasda ölkəmizi xüsusi işçi qrupunun Azərbaycan tərəfindən rəhbəri, xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılığı ilə nümayəndə heyəti təmsil edib.

İclasda Konvensiyanın layihəsi ilə yanaşı, Xəzəryanı dövlətlərin Qazaxıstanda keçirilməsi planlaşdırılan dövlət başçılarının beşinci zirvə toplantısına aid digər sənədlər də müzakirə olunub.

Danışıqların yekununda digər sənədlər, o cümlədən Xəzəryanı dövlətlərin hökumətləri arasında neqliyyat sahəsində əməkdaşlıq Sazişi, ticari-iqtisadi əməkdaşlıq haqqında Saziş, Xəzər dənizində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş, terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol, Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq və sərhəd idarələrinin qarşılıqlı fəaliyyəti haqqında Saziş üzərində iş uğurla başa çatdırılıb.

Nümayəndə heyətləri danışıqların nəticələrini alqışlayıb və görüşün yüksək səviyyədə təşkilinə görə Qazaxıstan Respublikasına minnətdarlıqlarını bildiriblər.

Xüsusi işçi qrupunun növbəti iclası Qazaxıstanda keçiriləcək. Həmin iclasın keçirilmə tarixi diplomatik kanallarla razılaşdırılacaq.

İlahə Əhmədova

SEÇİM PROSESİ XÜSUSİ MEYARLAR ƏSASINDA APARILIR

AXDG-NİN ƏMƏKDAŞLARI "COLUMBİA SHİPMANAGEMENT LTD"-NİN GƏMİLƏRİNDƏ TƏCRÜBƏ KEÇƏCƏKLƏR

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də yüksək ixtisaslı gənc mütəxəssislərin hazırlanması, işçilərin təlimləndirilməsi, onların dənizçilik sahəsində beynəlxalq təcrübəyə dərindən yiyələnməsi istiqamətində ardıcıl addımlar atılır. Bu məqsədlə dünyanın müxtəlif aparıcı gəmiçilik şirkətləri və universitetləri ilə əməkdaşlıq edilir.

AXDG-nin əməkdaşlıq etdiyi nüfuzlu beynəlxalq gəmiçilik şirkətlərindən biri də "Columbia Shipmanagement Ltd"-dir.

Sözügedən şirkətlə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC arasında imzalanan memorandum əsasən, il ərzində Gəmiçiliyin 20 əməkdaşının "Columbia Shipmanagement Ltd"-nin gəmilərində təcrübə keçməsi nəzərdə tutulub. Burda onlar müxtəlif ölkələrin nümayəndələrindən ibarət heyətlə işləyəcəklər, daha böyük gəmilərin iş prinsipi ilə yaxından tanış olacaqlar, dünyanın böyük limanlarına getmək imkanı qazanacaqlar.

Artıq layihədə altı əməkdaşın iştirakı təsdiqlənib.

Onlardan ikisi – Orxan Həsənov və Tural Əliyev 24-28 aprel tarixlərində "Columbia Shipmanagement Ltd"-nin Batumidə təşkil etdiyi təlimi uğurla başa vurublar. Gənc kadrlar növbəti mərhələdə "Cape Tallin" (yükgötürmə qabiliyyəti – 42010, dedveyti – 73711 ton) və "Cape Dawson" (yükgötürmə qabiliyyəti – 8278 ton, dedveyti – 12789 ton) gəmilərində təcrübəyə yollanacaqlar.

Digər dörd nəfərin iştirakı ilə bağlı isə hazırda sənədləşmə işləri aparılır.

Layihə çərçivəsində gənclərin seçim prosesi xüsusi meyarlar əsasında "AXDG" QSC-nin və "Columbia Shipmanagement Ltd"-nin nümayəndələri tərəfindən aparılıb. Bu zaman iştirakçıların peşəkarlığı, işgüzarlığı, xarici dil bilikləri və s əsas götürülüb.

Donanmalarını daim yeniləyən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gələcəkdə bu kadrların əldə etdiyi təcrübədən bəhrələnmək niyyətindədir.

"Columbia Shipmanagement Ltd" 30 ildən artıq dənizdə insan həyatının mühafizəsi və müxtəlif təyinatlı gəmilərinin təhlükəsiz daşıma əməliyyatları, həmçinin gəmi heyətinin idarəedilməsi sahəsində fəaliyyət göstərən aparıcı şirkətlərdən biridir. Dünyanın bir çox ölkəsində nümayəndəlikləri olan "Columbia Shipmanagement Ltd"-nin idarəçiliyində hazırda 1500-dən çox gəmi mövcuddur. Onlardan 500-ü şirkətin özünə, digərləri isə müxtəlif ölkələrin şirkətinə məxsusdur.

SƏNGƏÇAL TERMİNALINDA CƏNUB QAZ DƏHLİZİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

PREZİDENT İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK EDİB

(Əvvəli 1-ci səhifədə)

Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır.

Dünən Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etmişdir. Bu da tarixi hadisə idi. Çünki ilk dəfə olaraq 1918-ci ildə müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı məhz Azərbaycan xalqı yaratmışdır. Dünən təntənəli mərasimdə çıxış edərkən bildirdim ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi və Azərbaycan Xalq Cümhuriyyəti süqut etməsəydi, bu gün Azərbaycan bəlkə də dünyanın ən inkişaf etmiş və ən zəngin ölkələrindən biri ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, zəngin neft ehtiyatlarımız çox böyük imkanlar açır. Ancaq Azərbaycan müstəqilliyini itirdi və ondan əvvəlki dövrdə Azərbaycan müstəqil olmadığı üçün Azərbaycan xalqı öz təbii ehtiyatlarından bəhrələnə bilməmişdir.

Dünya neftinin tarixi Azərbaycandan başlayır. 1846-cı ildə dünya miqyasında ilk dəfə olaraq sənaye üsulu ilə neft məhz Azərbaycanda, Bakıda hasil edilmişdir. O tarixi anı əks etdirən abidə şəhərimizin mərkəzində bir neçə il bundan əvvəl ucaldılıb. O vaxt – XIX əsrin ikinci yarısında və XX əsrin əvvəlində Azərbaycan dünya neft hasilatının əksəriyyətini təmin edirdi. Ancaq Azərbaycan xalqı bundan bəhrələnə bilibmi?! Əlbəttə ki, yox. O illərin şəkillərinə, statistik məlumatlarına baxmaq kifayətdir ki, hər kəs görsün ki, xalq səfalət içərisində yaşayırdı, yoxsulluq hökm sürürdü, heç bir sənaye inkişafından söhbət getmirdi. Sadəcə olaraq Azərbaycan resurs mənbəyi idi və Azərbaycandan çıxarılan "qara qızıl" Azərbaycan xalqının inkişafına xidmət etmirdi. Bizim neftimiz tükənirdi. Neftdən əldə edilən gəlir Azərbaycan xalqının rifahına yönəldilmirdi və eyni zamanda, biz Abşeron yarımadasında böyük ekoloji problemlərlə üzləşmişdik. Bu problemləri bu gün müstəqil dövlətimiz həll edir.

Bu gün müstəqil Azərbaycan və bizim uğurlu neft-qaz siyasətimiz göstərir ki, ancaq müstəqillik şəraitində, müstəqillik dövründə Azərbaycan xalqı öz təbii ehtiyatlarından istifadə edə bilər, ancaq müstəqillik dövründə Azərbaycan uğurla inkişaf edə bilər. Bu gün biz müstəqil dövlət kimi ayaqda möhkəm dayanmışıq, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edirik, belə nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edirik və Avropanın enerji xəritəsini yenidən tərtib edirik.

Sovet İttifaqı dağılanda Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq müstəqilliyimizin ilk iki ili çox ağır keçmişdir. Ölkə demək olar ki, idarəolunmaz vəziyyətdə idi, xaos, anarxiya, böhran hökm sürürdü, neft sənayesi tamamilə tənəzzülə uğramışdı, vətəndaş müharibəsinə start verilmişdi. Yəni, ölkə çox böyük təhlükələrlə üzləşmişdi və müstəqilliyimizin ilk iki ili formal xarakter daşıyırdı. Çünki Azərbaycan müstəqil siyasət apara bilmirdi.

1993-cü ildə Azərbaycan xalqı Heydər Əliyevə müraciət edərək onu hakimiyyətə dəvət etdi, Prezident vəzifəsinə seçdi və ondan sonra Azərbaycanın uğurlu inkişaf dövrü başlamışdır. Biz əgər tarixə baxsaq görərik ki, məhz o vaxtdan bu günə qədər Azərbaycan inamla inkişaf edir, ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir və ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən neft-qaz sektorumuz da inkişaf edir.

Qeyd etdiyim kimi, 1994-cü ildə birinci Xəzər Neft-Qaz Sərgisi təşkil edilmişdir. Azərbaycanın dünyada zəngin resurslara malik ölkə kimi tanıdılmasında bu sərginin çox böyük rolu olmuşdur. 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı" imzalanmışdır. "Azəri-Çıraq-Günəşli" neft yataqları dünyanın ən böyük neft yataqlarından biridir və 24 il bundan əvvəl imzalanmış "Əsrin kontraktı"nın müddəti keçən il 2050-ci ilə qədər uzadıldı. Yəni, bu, özlüyündə onu göstərir ki, bu yataqda nə qədər böyük neft ehtiyatları var. "Əsrin kontraktı" Azərbaycana nəfəs verdi, ölkəmizin canlanmasına xidmət göstərdi. İlk dəfə olaraq Xəzər dənizi xarici şirkətlər üçün açıldı. Biz o xarici şirkətləri dəvət etdik və bu gün "Əsrin kontraktı"nın icrası çox uğurla gedir və bu kontraktın imzalanmasından sonra Azərbaycanın iri neft strategiyası icra olunmağa başlamışdır.

Mən o tarixi günləri yaxşı xatırlayıram. Çünki o vaxt mən Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi bu işlərlə bilavasitə məşğul idim. O vaxt Azərbaycanın neft strategiyası müəyyən olundu və bu gün biz bu strategiyanın, görülən işlərin bəhrəsini görürük.

1994-cü ildən sonra ikinci böyük kontrakt "Şahdəniz" qaz yatağı üzrə imzalanmışdır. Onu da qeyd etməliyəm ki, bu kontrakt 1996-cı il iyulun əvvəlində məhz Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi gündə imzalanmışdır. Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, bu tarixi gündə Cənub Qaz Dəhlizinin açılışını qeyd edərkən biz görürük ki, bu, nə qədər vaxtında atılmış və müdrik addımdır. "Şahdəniz" qaz yatağı Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır.

1997-ci ildə isə "Əsrin kontraktı"nın icrası nəticəsində "Çıraq" platformasından ilk neft çıxarılmışdır. Bu tarixi videokadrlar artıq göstərilir və doğrudan da tarixi bir gün idi. İlk dəfə olaraq xarici şirkətlər tərəfindən Xəzərdə yeni yataqdan neft hasil edilmişdir.

Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkədir. Ona görə neft kəmərləri tikilməli idi və 1999-cu ildə artıq birinci neft kəməri – Bakı-Supsa kəməri istifadəyə verilmişdir. Yəni, bu, onu göstərir ki, biz bu böyük işləri nə qədər qısa müddət ərzində görmüşük. Bu işlər həm böyük maliyyə vəsaiti tələb edirdi, həm də texniki cəhətdən çox çətin layihələr idi. Onu da deməliyəm ki, 1999-cu ildə bizim hələ böyük vəsaitimiz də yox idi. Ondan sonra Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verildi. Ona görə bu layihələrin həyata keçirilməsi doğrudan da böyük səylər, böyük müdriklik tələb edirdi. Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi ilə biz tarixdə ilk dəfə Xəzər dənizini Qara dənizlə neft kəməri ilə bağlamışıq.

Ondan sonra 2002-ci ildə artıq biz "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün, eyni zamanda, etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir.

2007-ci ildə isə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan "Şahdəniz" yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır. O günü də mən çox yaxşı xatırlayıram. Ceyhandakı mərasimi də yaxşı xatırlayıram. Bu gün buraya gələrkən bütün o tarixi anlar, o günlər bir daha mənim yaddaşımda oyandı və bir daha mən demək istəyirəm ki, doğrudan da bunlar tarixi nailiyyətlərdir.

"Şahdəniz" yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı və nəhayət, 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında TANAP – Transanadolu qaz kəməri üzrə müqavilə imzalandı. Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşmasına güclü təkan verildi. TANAP layihəsi Cənub Qaz Dəhlizinin önəmli hissəsidir. Biz gələn ay TANAP layihəsinin istifadəyə verilməsini də qeyd edəcəyik. Qeyd etdiyim kimi, 2014-cü il sentyabrın 20-də, - o da çox rəmzi məna daşıyır, çünki "Əsrin kontraktı" 1994-cü il sentyabrın 20-də imzalanmışdır, - 20 ildən sonra Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Bu gün biz bu layihənin rəsmi açılışını qeyd edirik və bu, doğrudan da böyük və tarixi hadisədir.

Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir. Bu layihənin icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulubdur və qoyulur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Əminəm ki, bundan böyük həcmdə resurslarımız var. Gələcək kəşfiyyat və istismar işləri əminəm ki, bunu təsdiqləyəcək.

Bu layihələrin həyata keçirilməsi beynəlxalq əməkdaşlıq olmadan mümkün olmazdı. Mən, ilk növbədə, regional əməkdaşlıq haqqında danışmaq istərdim. Azərbaycan, Gürcüstan və Türkiyə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar. Ona görə bu layihələrin icra edilməsində bu üç ölkənin birgə səyləri xüsusi yer tutur. Mən bu gün fürsətdən istifadə edərək həm Türkiyə, həm Gürcüstan rəhbərliyinə əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Mən bu gün Amerika Birləşmiş Ştatlarının hökumətinə təşəkkürümü bildirmək istəyirəm. Çünki Amerika Birləşmiş Ştatları bütün layihələrimizdə bizə böyük dəstək olub, bizə kömək göstərib, həm siyasi dəstək, həm mənəvi dəstək. Əlbəttə, bu layihələr böyük resurslar tələb edir və maliyyə resurslarının böyük hissəsi banklar tərəfindən verilir. Amerika hökumətinin bu işdə çox böyük səyləri olub. Biz bu dəstəyi, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və "Cənub Qaz Dəhlizi" layihələrinin reallaşmasında həmişə hiss etmişik və hiss edirik. Bu dəstək bu layihələrin icra edilməsində çox böyük rol oynamışdır.

Böyük Britaniya hökuməti də həmişə bizim yanımızda olub. Bildiyiniz kimi, BP şirkəti energetika sahəsində bizim əsas investorumuzdur. Böyük Britaniya hökuməti bu layihələrin reallaşmasında həmişə bizə dəstək göstərmişdir, biz bu dəstəyi bu gün də hiss edirik. Keçən ay Londonda Baş nazir xanım Mey ilə mənim iştirakımla BP ilə SOCAR arasında növbəti kontrakt imzalanmışdır. Bu, bizim strateji əlaqələrimizi bir daha əks etdirir.

Avropa İttifaqı bu layihənin icrasında çox önəmli rol oynamışdır. Hələ 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə imzalanmışdır. Bu illər ərzində biz daim Avropa İttifaqının dəstəyini hiss etmişik. Azərbaycanın və Avropa İttifaqının təşəbbüsü ilə son dörd il ərzində Bakıda hər il Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilir. 2015-ci ildən bu günə qədər Avropa İttifaqı bu toplantılarda ən yüksək səviyyədə təmsil olunur. Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlıq formatında energetika sektoru təbii ki, çox böyük yer tutur.

Bu layihələrin həyata keçirilməsi maliyyə institutlarının maliyyəsi olmadan mümkün olmazdı. Mən bugünkü mərasimdə bizə dəstək olan beynəlxalq səviyyədə tanınmış banklara da öz təşəkkürümü bildirmək istəyirəm. Onlar da bizə inanır və öz maliyyə resurslarını ayırırlar. Onlar da əmindirlər, biz də əminik ki, Azərbaycan etibarlı tərəfdaş kimi bütün borcları vaxtında qaytarır və qaytaracaq.

Bir sözlə, geniş beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihə əminəm ki, gələcəkdə nəinki energetika sahəsində, bütün başqa sahələrdə Avropada və bizim bölgədə əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcək.

Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə iştirak edir. Mən o ölkələrin adlarını bu gün çəkmək istərdim - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Bax, geniş beynəlxalq əməkdaşlıq yaradılıb.

Eyni zamanda, üç Balkan ölkəsi – Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi əminəm ki, növbəti mərhələdə bu layihəyə qoşulacaqlar. Cənub Qaz Dəhlizinin qolları olmalıdır. Biz ixrac imkanlarımızı genişləndirmək istəyirik. Bilirik ki, Avropada da Azərbaycan qazına tələbat var. Biz də istəyirik daha çox qazı Avropaya sataq, çünki Avropa bazarı bizim üçün ən əlverişli bazardır.

Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi məsələlərinin həllinə də kömək göstərəcək. Bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır.

Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsi işində də çox önəmli layihədir və hesab edirəm ki, əvəzolunmaz layihədir. Bu layihədə biz həm mənbələrin, həm marşrutların şaxələndirilməsini görürük. Çünki ancaq bu təqdirdə biz tam mənada enerji resurslarının şaxələndirilməsi haqqında danışa bilərik. Sadəcə olaraq, yeni marşrutların açılması və eyni mənbədən qidalanması tam mənada enerji şaxələndirilməsi məsələsi deyil. Biz isə, sözün əsl mənasında, enerji şaxələndirilməsi layihəsini icra edirik. Azərbaycan qazı yeni mənbədir və Cənub Qaz Dəhlizi yeni enerji damarıdır, Avropanın enerji təhlükəsizliyini yenidən tərtib edən layihədir. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəflərin maraqları təmin edilib. Bu da çox önəmlidir. Burada maraqlar balansı gözlənilib.

Hasilatçı ölkə Azərbaycan, tranzit ölkələr, o cümlədən Azərbaycan və başqa ölkələr və istehlakçı ölkələr, - hansılar ki, Azərbaycan qazını alternativ qaz kimi alacaqlar, - beləliklə, onlar üçün enerji təhlükəsizliyi məsələləri daha da dolğun şəkildə, tam şəkildə təmin ediləcək. Yəni, maraqlar balansı olmasaydı, bu layihə həyata keçirilə bilməzdi. Bizim enerji siyasətimizlə bağlı yanaşmamız məhz bundan ibarətdir. Biz qarşılıqlı faydalı əməkdaşlığı təmin etməliyik.

İştirak edən bütün tərəflər, şirkətlər, ölkələr öz mənfəətini götürməlidirlər - həm siyasi, həm təhlükəsizlik, həm iqtisadi. Şirkətlər öz mənfəətini götürməlidirlər və Azərbaycan resursların sahibi kimi, əlbəttə ki, öz mənfəətini götürür və götürəcək.

Çıxışımın sonunda bu layihələrin ölkəmiz üçün nə qədər böyük fayda gətirdiyini qeyd etmək istərdim. Bu gün Azərbaycan ayaqda möhkəm duran bir ölkədir, müstəqil ölkədir, müstəqil siyasət aparan ölkədir, güclü iqtisadiyyata malik olan bir ölkədir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Ölkə iqtisadiyyatına son 15 il ərzində 230 milyard dollardan çox sərmayə qoyulmuşdur.

Azərbaycanda xarici dövlət borcu çox aşağı səviyyədədir, ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni, biz istənilən vaxtda bütün borcları rahatlıqla ödəyə bilərik. Azərbaycanda son 15 il ərzində yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,4 faizə düşüb, işsizlik 5 faiz səviyyəsindədir. Bu, onu göstərir ki, qara qızıl, neft və qaz insan kapitalına çevrilib. Onu göstərir ki, bizim siyasətimiz ondan ibarət olmuşdur ki, biz neft-qaz əməliyyatlarından əldə olunan gəlirləri cəmiyyətdə bərabər, ədalətli şəkildə bölək və ölkə iqtisadiyyatının inkişafı üçün lazım olan layihələrə yönəldək. Dünya Davos İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görüb. Bu, onu göstərir ki, biz iqtisadi şaxələndirmə siyasətini uğurla aparırıq. Neftdən əldə edilmiş gəlirlər iqtisadiyyatın qeyri-neft sektoruna yönəlib. Davos Forumunun hesablamalarına əsasən inkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan üçüncü yerdədir. Bu işlərin təməlində bizim uğurlu neft-qaz siyasətimiz dayanır. Ancaq, eyni zamanda və böyük dərəcədə bu işlərin təməlində düşünülmüş siyasət dayanır. Bir çox ölkələr var ki, onların bizdən qat-qat böyük neft resursları, neft hasilatı var. Ancaq ölkələrin uğurlu inkişafını təbii resurslar həll etmir. Düşünülmüş siyasət, xalq-iqtidar birliyi, şəffaflıq, bütün azadlıqların təmin edilməsi, düzgün iqtisadi siyasət və regional əməkdaşlıq uğurlu inkişafın əsas amilləridir.

Bu gün bu tarixi gündə mən bu tarixi məqamları bir daha sizin və Azərbaycan xalqının diqqətinə çatdırmaq istərdim. Çünki bugünkü günün təməli məhz o illərdə qoyulub. Sadəcə olaraq, biz bütün bu işləri ardıcıllıqla görmüşük. Bu gün bizim ölkəmizin həyatında çox əlamətdar tarixi bir gündür. Bu gündə mən Cənub Qaz Dəhlizinə uzun və uğurlu ömür arzulayıram.

Sağ olun.

x x x

Mərasimdə ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini xanım Sandra Oudkirk çıxış etdi.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson tədbirdə çıxış etdi, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin mərasim iştirakçılarına müraciətini oxudu.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral Prezident Rəcəb Tayyib Ərdoğanın müraciətini səsləndirdi.

Tədbirdə Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo, Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurin və "BP Group Upstream"in baş icraçısı Bernard Luney də çıxış etdilər.

Sonra "Şahdəniz 2" və "Cənub Qaz Dəhlizi" layihələri haqqında videoçarx təqdim olundu.

Daha sonra Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin rəsmi açılışını etdi.

Sonda xatirə şəkilləri çəkdirildi.



GƏMİÇİLİYİN STENDİ QARŞISINDA AYAQ SAXLAYAN ZİYARƏTÇİLƏR AZ DEYİL

"Bakı Ekspo Mərkəzi"ndə 25-ci Beynəlxalq Xəzər Neft və Qaz (Caspian Oil & Gas 2018) sərgisi keçirilir. Əsas istiqamətləri neft hasilatı və enerji resurslarının nəqli sahəsində innovativ texnologiyalar, neft və qazın saxlanması sistemlərinin təmin edilməsi, regionda mövcud və gələcək neft-qaz layihələri və s. olan sərgiyə 300-dən çox şirkət qatılıb.

Diqqəti gündən-günə qüdrətlənən gənc, müstəqil Azərbaycanın karbohidrogen ehtiyatlarına, Xəzər dənizində reallaşdırılan iri neft-qaz layihələrinə, əlverişli coğrafi məkanda yerləşən ölkəmizin tranzit imkanlarına yönəltmək baxımından da böyük əhəmiyyəti olan sərgidə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti də ayrıca stendlə təmsil olunur.

Sərgidə Gəmiçiliyin zəngin inkişaf tarixi, nəqliyyat və dənizdə neft hasilatı ilə bağlı hər cür dəniz nəqliyyatı xidmətləri təklif edən donanmaları haqqında videoçarx nümayiş olunur. Gəmiçiliyin stendi qarşısında ayaq saxlayan ziyarətçilər az deyil. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətini təmsil edən nümayəndələr ziyarətçiləri maraqlandıran bütün suallara ətraflı cavab verirlər.

XXV Beynəlxalq "Xəzər Neft və Qaz" ("Caspian Oil & Gas") sərgisi iyunun 1-dək davam edəcək.

DONALD TRAMP: "AZƏRBAYCANIN BÖYÜK NEFT YATAQLARI DÜNYA ENERJİ BAZARINA SABİTLİK GƏTİRİR"

İlk müstəqil dövlətinin 100 illiyini qeyd edən Azərbaycan indi daha firavan və qlobal iqtisadiyyata bağlı bir ölkədir. Azərbaycanın böyük neft yataqları dünya enerji bazarına sabitlik gətirir. Sizin qaz hasilatınız isə Türkiyə və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verəcəkdir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktubunda yer alıb.

Məktubda Prezident Donald Tramp Prezident İlham Əliyevi və Azərbaycan xalqını Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin 25 illiyi və Cənub Qaz Dəhlizinə ilk qazın verilməsi münasibətilə təbrik edir. "Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında 30 illik əməkdaşlığın bu mühüm nailiyyətini Sizinlə birlikdə qeyd edirəm", - deyə ABŞ Prezidenti vurğulayır.

Donald Tramp məktubu bu sözlərlə bitirir: "Enerji layihələrinizin uğurunu möhkəmləndirəcək iqtisadi və hüquqi islahatları davam etdirməyinizi dəstəkləyirəm. Böyük dövlətlərimizin və Qafqaz regionunun daha firavan, dinc və təhlükəsiz olması naminə Sizinlə əməkdaşlıq etmək əzmindəyəm".

MƏHƏMMƏD BARKİNDO: "CƏNUB QAZ DƏHLİZİ FUNDAMENTAL SÜRƏTDƏ ENERJİ LANDŞAFTINI DƏYİŞƏCƏK"

Cənub Qaz Dəhlizi fundamental sürətdə enerji landşaftını dəyişəcək.

Bu sözləri mayın 30-da Bakıda keçirilən XXV yubiley Beynəlxalq "Caspian Oil and Gas" konfransının "Dayanıqlı gələcəyin inkişafı üçün əsas faktorlar: konsepsiya və innovativlik" adlı plenar sessiyasındakı çıxışında Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Sanusi Barkindo deyib.

"İki ay ərzində artıq ikinci dəfədir ki, Azərbaycana səfər edirəm. Bakı neft sənayesinin beşiyi, sivilizasiyanın inkişafına təkan verən və öz inkişafı ilə seçilən bir şəhərdir.

Azərbaycan neft və qaz sənayesinin sürətlə inkişaf etdiyi bir ölkədir. Bu ölkə 1994-cü ildə çox sərfəli neft müqaviləsi olan "Əsrin müqaviləsi"nin imzalanması ilə nüfuzlu beynəlxalq şirkətlərlə əməkdaşlığa başlayıb. Həmin vaxtdan indiyədək neft sənayesində kifayət qədər nəzərə çarpan artım müşahidə edilib. Hazırda investorlar da Azərbaycanın neft və qaz sektoruna mühüm töhfə verə biləcəyini dilə gətirir, ölkənin bu istiqamətdəki potensialını vurğulayır", - deyə OPEC-in baş katibi bildirib.

M.Barkindo qeyd edib: "Bu nailiyyətlər "Şahdəniz" yatağının fonunda əyanilik qazanır. Layihənin ikinci fazası - dünən rəsmi açılışı olan Cənub Qaz Dəhlizi ən iri enerji layihələrindən biridir. Bu layihə ölkə iqtisadiyyatının inkişafına, regiona və dünyaya müsbət töhfəsini verəcək. Cənub Qaz Dəhlizi fundamental sürətdə bizim enerji landşaftımızı dəyişəcək".

DƏNİZ

1 iyun 2018-ci il № 41-44 (9227)

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 100

ƏGƏR AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QURUCULARI BUGÜNKÜ AZƏRBAYCANI GÖRƏ BİLSƏYDİLƏR, ONLAR DA ÖLKƏMİZLƏ FƏXR EDƏRDİLƏR

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Xalq Cümhuriyyətinin qurucularının adları əbədiləşdirildi. Bu il isə Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur və həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə bu yubileyi qeyd edərək biz böyük tədbirlər keçirmişik, keçiririk və ilin sonuna qədər bu tədbirlər keçiriləcəkdir.

Bir daha demək istəyirəm ki, biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordumuz yaradılmışdır. Gələn ay biz ordumuzun 100 illiyini qeyd edəcəyik. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili - ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir.

Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsınlar və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, coğrafi yerləşməyimiz imkan verirdi ki, bu təbii resurslardan biz səmərəli şəkildə istifadə edək. XIX əsrin ikinci yarısında - XX əsrin əvvəllərində dünya neft hasilatının böyük hissəsi məhz Azərbaycanda, Bakıda təmin edilmişdir.

Əfsuslar olsun ki, biz müstəqilliyi itirdik. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi və onu bir də o tarixdən 70 il sonra Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında ulu öndər Heydər Əliyev qaldırmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi Naxçıvan Ali Məclisinin sessiyasında qəbul edilmişdir.

XX əsrdə Azərbaycan iki dəfə müstəqilliyə qovuşmuşdur, ikinci dəfə 1991-ci ildə. Bu da tarixi şans idi və Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan ikinci dəfə müstəqil ölkə kimi yaşamağa başlamışdır...

...Bu gün hansı sahəyə baxsan inkişaf var, tərəqqi var və gələcək dinamik inkişaf üçün aydın baxışlar var. Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər.

...Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

(Mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunan rəsmi qəbuldakı nitqindən)

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVLƏTÇİLİK TARİXİMİZİN QÜRURVERİCİ SƏHİFƏSİDİR

Mayın 25-də Azərbaycan Dövlət Dəniz Akademiyasının akt zalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş mərasim təşkil edilib. Dövlət himnimizin səslənməsi ilə başlayan mərasimi Azərbaycan Dövlət Dəniz Akademiyasının tədris və tərbiyə işləri üzrə prorektoru, professor Zahid Şərifov açaraq, XX əsrdə xalqımızın azadlıq mücadiləsinin rəmzi olan Cümhuriyyətin 100 illiyinin Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı əsasında xüsusi təntənə ilə qeyd edildiyini vurğulayıb.

Tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, müasir dövrdə müstəqillik ənənələrinin davam etdirilməsi haqqında videofilm nümayiş olunub.

Dəniz Akademiyasının qonaqları – Atatürk Mərkəzinin ictimai-siyasi şöbəsinin müdiri Əkbər Qoşalı, Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Nazim Tapdıqoğlu, AMEA-nın Tarix İnstitutunun aparıcı elmi işçisi, dosent Vasif Qafarov maraqlı məruzələrlə çıxış ediblər. Çıxışlarda Cümhuriyyət dövrünün siyasi və tarixi incəlikləri, Şərqdə ilk demokratik respublikanın təşəkkülü, Azərbaycan xalqının yetişdirdiyi böyük şəxsiyyətlər barədə təhlillər aparılıb, onilliklər keçdikdən sonra müstəqilliyimizin bərpası, müasir Azərbaycan dövlətçiliyinin qurulmasında Ümummilli Liderimiz Heydər Əliyevin rolu, XXI əsrdə Azərbaycanın dünya birliyində layiqli yerini tutması istiqamətində dövlət başçımız İlham Əliyevin atdığı ardıcıl addımlarla bağlı sanballı fikirlər səslənib. Natiqlər daha çox bugünün gənclərinə xitab edərək, babaların əmanəti olan müstəqilliyimizin və dövlətçilik ənənələrinin qorunub saxlanılması üçün əllərindən gələni etməyə səsləyiblər.

CÜMHURİYYƏTİN DƏNİZÇİLİK SAHƏSİNDƏ DAHA MİQYASLI ADDIMLAR ATMASINA ZAMAN YETMƏDİ

Azərbaycan Dövlət Dəniz Akademiyasının humanitar fənlər kafedrasının müdiri, dosent İlqar Abdullayev Azərbaycan Xalq Cümhuriyyəti hökuməti dövründə gəmiçilikdə vəziyyət, dənizçilik məktəblərinin fəaliyyəti, bu sahə üzrə ixtisaslı kadrların yetişdirilməsi və digər məsələlərlə bağlı araşdırma və qeydlərini təqdim edib.

Azərbaycanda dənizçilik sahəsində təhsilin əsası hələ Çar Rusiyası dövründə qoyulmuşdu. Kapitalizmin inkişafı ilə əlaqədar XIX əsrdə gəmiqayırma və gəmi sürücülüyü sahələrində köklü dəyişikliklər baş verir, yelkənli taxta gəmilər buxar mühərrikləri ilə işləyən metal gəmilərlə əvəzlənirdi. Həmin dəyişikliklər Çar Rusiyası hökumətinin qarşısında dəniz gəmiçiliyi üçün ixtisaslı kadrların hazırlanması, ümumtəhsil dəniz müəssisələrinin genişləndirilməsi kimi məsələlər qoymuşdu.1856-cı ildə Rusiya Ticarət Donanmasını inkişaf etdirmək üçün komitə, 1864-cü ildə "Dənizçilik sinifləri haqqında nizamnamə" "Şkiper və şturman adı almaq üçün sınaq qaydaları"nı hazırlayan xüsusi komissiya yaradıldı. XIX əsrin ikinci yarısında Rusiyanın iqtisadi sahədə möhkəmlənməsi dəniz nəqliyyatının inkişafına təkan verdi. Bu isə Bakı limanının rolunun artmasına və Xəzər dənizində yük dövriyyəsi üzrə Rusiyada birinci yerə çıxmasına səbəb oldu.

1870-ci ildə Bakı limanına təhkim olunmuş gəmilərdə 1500-dən çox azərbaycanlı dənizçi, o cümlədən 248 losman üzürdü. Bakıda dənizçiliklə bağlı təhsil müəssisəsinin olmaması və şəhər ictimaiyyətinin dənizçiliyə marağı nəzərə alınaraq, Bakıda "Dənizçilik sinifləri"nin təsis edilməsi qərara alındı. Bununla bağlı ideya 1872-ci ildə sürülsə də, ilk sinfin yalnız 1881-ci il noyabrın 8-də yaradılmasına nail olundu. İlk olaraq bu sinfə 8 şagird yazıldı, lakin qısa zamanda şagirdlərin sayı artmağa başladı. Artıq bir il sonra bu kurslarda 26 nəfər təhsil alırdı. Təhsil alan şagirdlərin içərisində azərbaycanlı, rus, erməni, hətta almanlar vardı. Burada riyaziyyat, rus dili, coğrafiya və naviqasiya üzrə dərslər keçirilirdi. Məktəbə daxil olmaq üçün xüsusi bilik tələb olunmurdu. Sadəcə yazıb-oxumağı bilmək kifayət edirdi. Dənizçilik siniflərini bitirənlər yalnız gəmi sürücüsü, şkiper və şturman ixtisası üzrə çalışa bilirdilər. 1902-ci ildə Bakı dənizçilik sinifləri əsasında üçillik "Bakı uzaq səfərlər məktəbi" yaradıldı və məktəbin tərkibində hazırlıq kursları təşkil edildi.

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra da "Bakı uzaq səfərlər məktəbi" və həmçinin "Bakı Dəniz Texnikumu", "Bakı gəmi mexanikləri" məktəbi də öz fəaliyyətini davam etdirirdi. Həmin dövrdə şagirdlər ödənişsiz təhsil alır və yataqxanadan istifadə edirdilər. Dərsliklər rus dilində olduğu üçün tədris də həmin dildə aparılırdı. Azərbaycanda dənizçiliklə bağlı biliklərin aşağı olması səbəbindən məktəblərə qəbul zamanı xüsusi şərtlər qoyulmamışdı. Sadəcə müraciət edənlərin oxuyub-yazmaq bacarıqlarına baxırdılar. Təhsil ocaqlarında Azərbaycan Xalq Cümhuriyyəti dövründə də məzun buraxılışı olub. Məzunlar neft və digər yüklər daşıyan gəmilərdə çalışmağa başlayıblar.

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən Azərbaycanın müstəqilliyinin elan olunduğu gün Fətəli xan Xoyskinin təşkil etdiyi müvəqqəti hökumətin tərkibindəki ilk nazirliklərdən biri Yollar Nazirliyi idi. İlk yollar naziri vəzifəsinə Zaqafqaziya Seymi hökumətində yollar naziri işləmiş, dəmir yol işləri sahəsində böyük təcrübəyə malik məşhur ixtiraçı-mühəndis Xudadat bəy Məlik-Aslanov təyin edilmişdi. 1919-cu ilin sonuna yaxın Yollar Nazirliyinin strukturuna bir sıra idarələrlə yanaşı, Bakı Dənizçilik Məktəbi də daxil olmuşdu.

Həmin dövrdə də dənizçilik məktəblərini bitirən azərbaycanlı şagirdlər gəmidə yüksək vəzifələrdə çalışa bilmirdilər. Bunun üçün Odessa, Sankt-Peterburq, Novorossiysk şəhərlərində ali təhsil almaq lazım idi. Savadlı kadrların azlığı dənizçilik məktəblərinin rəhbərliyinə azərbaycanlı şəxslərin gətirilməsi məsələsini ləngidirdi. Cümhuriyyət dövründə bir çox sahələrdə, o cümlədən məktəblərdə milliləşmə getsə də, dənizçilik məktəbini milliləşdirmək mümkün olmadı. Yalnız 1933-cü ildə professor Qasım Kazım oğlu Gül Bakı Dənizçilik Texnikumuna direktor təyin edildi və bununla da azərbaycanlı kadrların irəli getməsi üçün şərait yarandı. Bununla da hələ Cümhuriyyət dövründə formalaşmış "azərbaycanlılar gəmi idarə etməyə qabil deyillər" fikrinin yanlış olduğunu zaman özü sübut etdi.

Qeyd etmək istərdim ki, Cümhuriyyət dövründə xaricə oxumağa göndərilən azərbaycanlı gənclər sırasında dənizçilik peşəsi üzrə təhsil alan tələbələr də olub. Onlardan biri Abbas Seyfulla oğlu Atamalıbəyov idi. Xalq Cümhuriyyəti parlamentinin xüsusi qərarına əsasən dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş A.Atamalıbəyov ilk təhsilini Şamaxıda və Tiflisdə almışdı. Topçu zabit olmaq istəsə də, görmə qabiliyyəti zəif olduğundan onu hərbi məktəbə qəbul etməmişdilər. 1914-cü ildə Peterburq Politexnik İnstitutunun dəniz mühəndisliyi fakültəsinə qəbul olunmuş, bu dövrdə sağ eserlərə qoşulmuş, müsəlman həmyerlilər komitəsinin sədri seçilmişdi. Rusiyada inqilabi hərəkatda yaxından iştirak etmiş, sonra Qafqaza qayıdaraq siyasi fəaliyyətini davam etdirmişdi. Atamalıbəyov Azərbaycan Milli Şurasının və Cümhuriyyət parlamentində sosialistlər bloku fraksiyasının üzvü idi. Parlamentin 1919-cu il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini gəmiqayırma sahəsində davam etdirmək üçün Paris Universitetinə (Fransa) göndərilmişdi. Xarici İşlər Nazirliyi Paris sülh konfransında (1919-20) Azərbaycan nümayəndə heyətinin üzvü Məhəmməd Məhərrəmovu əvəz etmək üçün Atamalıbəyovu Fransaya ezam etmişdi. O, nümayəndə heyətinin tərkibində katib kimi fəaliyyət göstərmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyətinə xüsusi diqqət yetirilən Lütfəli bəy Rəhim Ağa oğlu Behbudov da milli azadlıq hərəkatının fəal iştirakçılarından biri olmuş dənizçilərdən idi. O, 1903-cü ildə Peterburq Texnoloji İnstitutunu mühəndis-mexanik ixtisası üzrə bitirərək Bakıya qayıtmış, 1904-cü ildən Xəzər ticarət donanması gəmi mexanikləri kursunda nəzəri mexanikadan dərs demiş, 1908-ci ildə Kür-Xəzər Gəmiçilik Cəmiyyətinin rəhbəri olmuşdu.

Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı ilk günlərdən qarşıya qoyduğu əsas məsələlərdən biri ticarət gəmilərini Cümhuriyyətin sərəncamına keçirmək, gəmilərin Azərbaycan bayrağı altında üzməsinə nail olmaq idi. Lakin yeni yaranan dövlətin qarşısında o qədər məsələ dayanırdı ki, dənizçilik sahəsində daha miqyaslı addımlar atılmasına zaman yetmədi. Birinci dünya müharibəsi su nəqliyyatına da ağır zərbə vurdu. Ticarət gəmilərinin xeyli hissəsi Azərbaycan sərhədlərindən çıxarılıb aparıldı və ya yararsız hala düşdü. Qalan ticarət gəmiləri və Bakı limanı 1918-ci il noyabrın 29-dan ingilis komandanlığının sərəncamına keçdi. Ticarət donanmasını idarə etmək üçün Bakıda "İngiltərə dəniz nəqliyyatı" şirkəti yaradıldı.

Azərbaycanda dənizçilik məktəbləri dövlət müstəqilliyinin bərpasından sonra demək olar ki, özünün intibah dövrünü yaşamağa başladı. Nazirlər Kabinetinin 1996-cı il 15 iyul tarixli qərarı ilə Azərbaycan Dövlət Dəniz Akademiyasının yaradılması məhz ulu öndər Heydər Əliyevin müdrik düşüncəsinin və uzaqgörən siyasətinin nəticəsi idi. Akademiya respublikanın ticarət gəmilərində işləmək üçün yüksəkixtisaslı dənizçi kadrlar hazırlayan yeganə ali məktəb kimi fəaliyyətə başladı.

Hazırda Dövlət Dəniz Akademiyasının yetişdirdiyi yüksəkixtisaslı mütəxəssislər Xəzər dənizi və beynəlxalq sularda üzən gəmilərdə çalışırlar. Akademiyada təhsil alan tələbələrin nəzəri və praktiki biliyə yiyələnmələri üçün hər cür şərait yaradılıb. Bilik nəticələri ilə fərqlənən tələbələrə təqaüd verilir, onların xaricdə təhsil almasına və təcrübə keçməsinə kömək göstərilir. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC yüksəkixtisaslı kadrların yetişdirilməsində akademiyaya daim dəstək olur, tələbələri dənizçilik peşəsinə həvəsləndirmək üçün digər tədbirlər həyata keçirir.

QAZAXISTANLI REKTOR ADDA-DA OLUB

Ş. Yesenov adına Qazaxıstan Dövlət Texnologiya və Mühəndislik Universitetinin rektoru B.Axmetovun rəhbərliyi ilə nümayəndə heyəti mayın 15-də Azərbaycan Dövlət Dəniz Akademiyasında olub.

ADDA-nın rektoru Çingiz Əliyevlə görüşdə "İkili diplom" proqramı, müəllimlərin və tələbələrin mübadiləsi, qazaxıstanlı dənizçilərin sertifikatlandırılması və s. mühüm məsələlər müzakirə edilib. Tərəflər qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəliblər.

Görüşdən sonra qonaqlar Akademiyanın tədris bazası, o cümlədən müasir naviqasiya trenajorları, ixtisaslaşdırılmış laboratoriyaları və kitabxana ilə yaxından tanış olublar. B.Axmetov ADDA-nın tarix muzeyində fəxri qonaqlar kitabına ürək sözlərini yazıb, azərbaycanlı həmkarlarına uğurlar arzulayıb.

Daha sonra Qazaxıstan nümayəndələri ADDA-nın Təlim-Tədris Mərkəzinə gediblər. Mərkəzin direktoru Emil Manafov qonaqlara mərkəz haqqında ətraflı məlumat verib, trenajor və simulyator avadanlıqları ilə təchiz olunmuş təlim otaqları, xilasetmə təlimləri üçün nəzərdə tutulmuş hovuz ilə tanışlıq zamanı mərkəzdə tədris prosesini izah edib, qonaqların suallarına cavablandırıb. Sonda qonaqlarla xatirə şəkilləri çəkdirilib, onlar bu tanışlıqdan çox razı qaldıqlarını bildiriblər.

"DƏNİZ ÜZGÜÇÜLÜYÜNDƏ RİSKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ" MÖVZUSUNDA USTAD DƏRSİ TƏŞKİL OLUNUB

Mayın 22-də ADDA-nın akt zalında "Dəniz naviqasiyası" kafedrasının baş müəllimi Asif Xəlilovun "Dəniz üzgüçülüyündə risklərin qiymətləndirilməsi" mövzusunda ustad dərsi keçirilib. Dərsdə akademiyanın rəhbərliyi və professor-müəllim heyəti ilə yanaşı, doktorantlar, magistrantlar və tələbələr də iştirak ediblər.

A.Xəlilov ilk növbədə dəniz üzgüçülüyündə risklərin qiymətləndirilməsini özündə əks etdirən rəhbər sənədlər barədə ətraflı məlumat verib, riskin və təhlükənin nə olduğunu aydınlaşdıraraq, riskin qiymətləndirilməsi üçün ədəbiyyat analizinin nəticələrini diqqətə çatdırıb. Mühazirədə dəniz sürücülüyündə mövcud təhlükəli hallar, bu zaman insanları gözləyən risklər, riskin qiymətləndirilməsi zamanı əsas amillər (insan həyatı, ətraf mühit, təhlükəsiz istismar) nəzərdən keçirilərək, riskin qiymətləndirmə matrisi təqdim edilib. Bu matrisdə ehtimal edilən risk səviyyələri qiymətləndirilib, yeni riskə nəzarət tədbirləri müəyyən olunub.

Sonda A. Xəlilov risklərin qiymətləndirilməsi metodikasını təklif edib, dinləyiciləri maraqlandıran suallara cavab verib.

DƏNİZ AKADEMİYASININ ALTI TƏLƏBƏSİ QARA DƏNİZDƏ TƏCRÜBƏ KEÇƏCƏK

Azərbaycan Dövlət Dəniz Akademiyasının II və III kursda oxuyan altı tələbəsi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin təşəbbüsü ilə Qara dənizdə təcrübə keçəcək. Onların üçü gəmi sürücüsü, üçü isə mexanik ixtisası üzrə təhsil alır.

Artıq üçüncü ildir ki, reallaşdırılan layihəyə seçimlər xüsusi meyarlarla aparılıb.

Əvvəlcə Akademiyadan həm dekanların, həm də müəllimlərin rəyi öyrənilib. Daha sonra yüksək bal toplayan, intizamlı, ingilis və rus dillərində müəyyən səviyyəyə malik tələbələr müsahibə mərhələsinə çağırılıb.

Müraciət edənlərin ixtisas üzrə bilikləri Donanmanın texniki istismar departamentinin rəisi Balakişi Səfərov, Dəniz üzgüçülüyünün təhlükəsizliyi departamentinin rəis müavini Rövşən Dəmirov, dil səviyyələri isə AXDG-nin İnsan resurslarının idarəedilməsi departamentinin gənclərlə iş üzrə koordinatoru Roza Bədəlova tərəfindən yoxlanıb. Nəticədə 19 nəfər arasından altı tələbə Qara dənizdə təcrübə keçmək üçün müsbət rəy alıb.

Seçimlərdən müvəffəqiyyətlə keçən tələbələr təəssüratlarını "Seanews.az" saytı ilə bölüşüblər.

Fuad Fətullayev "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisası üzrə III kursda təhsil alır. Uşaqlıqdan dənizçiliyə böyük maraq göstərən Fuad Qara dənizə gedəcəyi ilə bağlı xəbəri sevinclə qarşılayıb:

- Hər kursu başa vurduqca ixtisasımı daha çox sevirəm,- deyir. -Düşünürəm ki, bu, biliklərimi artırmağımla bağlıdır. İndi biz daha çox ixtisas fənləri keçirik. Görürəm ki, həqiqətən, dənizçilik çox maraqlıdır. Qara dənizdə qazanacağım təcrübədən isə gözləntilərim böyükdür. Düşünürəm, bu, məni daha da həvəsləndirəcək.

Fuad hesab edir ki, onun uğur qazanmasında ailəsi ilə yanaşı, Akademiyadakı mühitin də böyük rolu olub. O deyir:

- Təbii ki, mən həmişə valideynlərimdən diqqət görmüşəm. Onlar atdığım bütün addımlarda yanımda olublar. Bununla belə, məni həvəsləndirən məsələlərdən biri də Akademiyadakı mühitdir. Rektordan tutmuş sıravi işçiyədək hamı çalışır ki, biz nəsə əldə edək. Müəllimlərimizin üzərimizdə zəhməti çoxdur. Və sevindiricidir ki, tələbələr də bir-birinə dəstək olmağı bacarırlar.

"Dəniz naviqasiyası mühəndisliyi" ixtisası üzrə III kurs tələbəsi Mirafiq Şahmarlı da seçilən tələbələrdəndir. O, dənizçiliyə böyük qardaşının tövsiyəsi ilə gəlib.

- Bizi Dəniz Akademiyasında yaxşı oxumaqdan başqa heç nə düşündürmür,- deyə Mirafiq Şahmarlı bildirir.- Bunun üçün isə burada hər cür şərait yaradılıb. Gündə iki dəfə pulsuz yemək verilir. Yataqxanamız var, ödənişsiz geyim və dərs vəsaitləri ilə təmin olunuruq. Ümumiyyətlə, Akademiyada oxumağın üstünlükləri çoxdur. Bunlardan biri də məhz, reallaşdırılan bu layihədir. Düşünürəm, Qara dəniz təcrübəsi çox maraqlı olacaq. Yeni növ gəmilər görəcəyik, fərqli limanlara yan alacağıq, xarici dillərdə danışan insanlarla ünsiyyətə girəcəyik və s.

"Dəniz naviqasiyası mühəndisliyi" ixtisası üzrə təhsil alan daha bir III kurs tələbəsi Oruc Əzizovu da şanslı hesab etmək olar. O da layihədə iştirak haqqı qazananlardandır. Oruc Əzizov deyir:

- Qara dənizə getməyimlə bağlı aldığım xəbərə çox sevindim. Heç Akademiyaya qəbul olanda belə sevinməmişdim. Bu, mənim özümə inamımı, peşəmə sevgimi artırdı. Başda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev olmaqla bizə şərait yaradan, dəstək olan hər kəsə minnətdarlıq edirəm. Çalışarıq ki, bizə bəslənilən ümidləri doğruldaq.

Seçimlərdə uğur qazanmağının sirlərini açıqlayan Oruc deyir ki, ən əsası məsuliyyətli olmaqdır: "Hər şey ilk addımdan başlayır. İlk addımı isə məsuliyyətlə atmaq lazımdır. Düşünməlisən, qarşına məqsəd və hədəf qoymalısan. Hamımız bilirik ki, kim üzərində daha çox işləyirsə, sonda uğura da o adam nail olur. Bunun əksi mümkün deyil. Layihəni qazanmaq üçün gecə-gündüz oxumuşam, ixtisasıma mükəmməl yiyələnməyə çalışmışam, dil biliklərimi artırmışam. Nəticə sevindiricidir".

Mahmud Mahmudov "Dəniz naviqasiyası mühəndisliyi" ixtisası üzrə III kursda oxuyur. Qara dənizdə təcrübə keçmək onun ən böyük arzusu olub. Hətta Akademiyaya qəbul olandan sonra bununla bağlı özünə söz də veribmiş. O deyir:

- Qara dəniz məsələsi barədə birinci kursa daxil olandan məlumatım var. Elə o vaxtdan bu layihədə iştirak edəcəyimə dair özümə söz vermişdim. Və mən istəyimə nail olmaq üçün çox çalışırdım. Bu, mənim üçün ona görə önəmliydi ki, yenilikləri sevirəm. Orda biz təcrübə toplamaqla yanaşı, öz potensialımızı üzə çıxara bilərik. Düşünürəm ki, böyük şansdır. Yaxşı ki, bu fürsətdən yararlanmaq imkanım oldu. Söz verirəm ki, "AXDG" QSC-nin və ADDA-nın etimadını doğruldacağam.

"Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisası üzrə II kurs tələbəsi Cəfər Kazımov deyir ki, peşəkar dənizçi olmaq üçün bu təcrübə onlara çox kömək edəcək:

- Hələ ikinci kursda oxuyuram və təhsilimin ilk illərində belə bir təcrübəyə yollanmağımı böyük şans hesab edirəm. Məncə, bundan yaxşı fürsət ola bilməz. Dəstək olan, diqqət göstərən hər kəsə minnətdarlığımı bildirirəm".

Hamı kimi Cəfər Kazımov da Qara dənizə aparan yolda çox çalışıb. O, arzusuna güclü istək və həvəs hesabına çatdığını deyir:

- Bəli, ilk növbədə istək və həvəs olmalıdır. Əks halda, nə qədər çalışsan da, heç nəyə nail olmayacaqsan. Mənim dənizçiliyə uşaq vaxtından həvəsim var idi. ADDA hesabına uşaqlıq arzum gerçəkləşir. İndi bizi böyük təcrübə gözləyir. Üzərimizdə ciddi məsuliyyət var. Etimadı doğrultmalıyıq…İnanıram, biz bunu bacaracağıq.

"Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisası üzrə təhsil alan II kurs tələbəsi Nicat Səmədov da Qara dəniz təcrübəsinin uğurlu olacağına əmindir.

Nicatın atası və əmisi dənizçidir. Buna baxmayaraq, heç vaxt ona "dənizçi ol" deyən olmayıb. Yalnız öz qərarından sonra doğmalarının dəstəyini görüb. Nicat deyir:

- Tənbəllik sevmədiyim xüsusiyyətlərdəndir. Məqsədlərimə gedən yolda heç vaxt geriyə baxmamışam. Düşünürəm ki, uğur qazanmaq üçün sadəcə insanın əlindən gələni etməsi azdır. Bunun üçün əlindən gələnin ən yaxşısını etmək lazımdır. Qara dənizə getmək üçün seçilməyim şans deyildi. Bunun arxasında gərgin zəhmət dayanır. Və təbii ki, dəstək də burda böyük rol oynayır. Ailənin, çevrəmizin, AXDG və ADDA-nın rəhbərliyinin, eləcə də əməkdaşlarının rolunu danmaq olmaz.

Qeyd edək ki,"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin əsas strateji hədəflərindən biri gənclərdən ibarət peşəkar kadrların hazırlanmasıdır. Bu məqsədlə "AXDG" QSC-nin daxili imkanları hesabına mütəmadi olaraq beynəlxalq səviyyədə tanınan təcrübəli gəmiçilərin təlimləri təşkil edilir, gənc əməkdaşların dənizçilik sahəsində ixtisaslaşan nüfuzlu şirkətlərdə təcrübə keçmələri üçün xüsusi layihələr həyata keçirilir.

"AXDG" QSC-nin Təqaüd Proqramına uyğun olaraq hər il magistr təhsili almaq üçün ADDA-nın məzunları dünyanın nüfuzlu ali məktəblərinə göndərilir. Bu, şirkətin kadr potensialının formalaşmasında savadlı, beynəlxalq standartlara cavab verən gənc dənizçilərə üstünlük verməsinin bariz nümunələrindən biridir.

Məhz, Azərbaycan Dövlət Dəniz Akademiyası tələbələrinin AXDG-nin xarici sularda üzən gəmilərində təcrübə keçmələrinə imkan yaradılması da onların beynəlxalq standartlara uyğun inkişafının təmini və peşəkarlığının artırılması, gənclərin həvəsləndirilməsi və ruhlandırılması məqsədi ilə reallaşdırılır.

Onu da deyək ki, sözügedən təcrübə üç ay davam edir.

Rövşən ABDURƏHMANOV

TAP: YUNANISTAN VƏ ALBANİYA MARŞRUTUNDA TORPAQ ÖRTÜYÜNÜN 59 FAİZİ ƏVVƏLKİ VƏZİYYƏTİNƏ GƏTİRİLİB

Azərbaycan təbii qazını Avropaya daşıyacaq "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin Yunanıstan və Albaniya marşrutunda torpaq örtüyünün 59 faizi əvvəlki vəziyyətinə gətirilib.

Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb. Bildirilir ki, boru kəmərinin 765 kilometrlik Yunanıstan və Albaniya hissəsinin 450 kilometrində torpaq örtüyü əvvəlki vəziyyətinə gətirilib.

Xatırladaq ki, ilin əvvəlində Avropa İnvestisiya Bankının İdarə Heyəti Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyanın təbii qaz şəbəkəsinə qoşulmaq üçün Cənubi İtaliya sahillərinə çıxan TAP boru kəməri üçün 1,5 milyard avro məbləğində maliyyələşdirməni təsdiqləyib. Bank bildirir ki, layihə Cənub Qaz Dəhlizinin bir hissəsidir və Avropa İttifaqının enerji siyasəti çərçivəsində strateji cəhətdən əhəmiyyətli bir komponent kimi, Avropa Şurası, Avropa Komissiyası və Avropa Parlamenti tərəfindən müəyyən edilən təşəbbüsdür.

Qeyd edək ki, Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan TAP qaz boru kəmərinin təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. TAP Avropa İttifaqı (Aİ) üçün prioritet enerji layihələrindən olan Cənub Qaz Dəhlizinin bir seqmentini təşkil edir. TAP qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 70 faizdən çoxu yekunlaşıb.

Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. Layihənin ümumi dəyəri 4,5 milyard avro qiymətləndirilir. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ildə Türkiyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə 2020-ci ilə planlaşdırılır.

TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Boru kəməri buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

TAP-ın Yunanıstandan keçəcək 550 kilometrlik hissəsində 538 kilometrlik ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Təxminən 524 kilometr boru marşrut xətti boyunca düzülüb. Bu ölkədə boruların 506 kilometrdən çoxu qaynaq edilib. 428 kilometr boru torpağa basdırılıb və təxminən 320 kilometr ərazi tamamilə əvvəlki vəziyyətinə gətirilib. TAP-ın Albaniyadan keçəcək 215 kilometrlik hissəsində isə təxminən 187 kilometrlik ərazi təmizlənib və qiymətləndirilib, 181 kilometr boru marşrut xətti boyunca düzülüb. Boruların 177 kilometri qaynaqlanıb və onların təxminən 158 kilometri torpağa basdırılıb. Təxminən 119 kilometr ərazi tamamilə əvvəlki vəziyyətinə gətirilib. Beləliklə boru kəmərinin ümumilikdə 765 kilometrlik Yunanıstan və Albaniya hissəsində 725 kilometrlik ərazi, yəni bu marşrutun 95 faizi tamamilə təmizlənib və qiymətləndirilib. Yunanıstan və Albaniyada boruların 89 faizi qaynaq edilib. Bu marşrut üzrə boruların ümumilikdə 77 faizi torpağa basdırılıb.

Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi aparılır. Ölçmə stansiyasındakı işlərə də ötən ilin birinci rübündə başlanılıb. Kompressor və ölçmə stansiyalarının mühəndislik, təchizat və tikintisi (EPC) üzrə podratçı - İtaliyanın "Renco S.p.A" və Yunanıstanın "Terna S.A." birgə müəssisəsi hər 3 stansiyada beton və torpaq işlərini, eləcə də qazma və giriş yollarının tikintisini tamamlayıb. Üç turbo kompressor paketi artıq Yunanıstana çatdırılıb və onlar Kipoidəki stansiyasında quraşdırılıb. Ötən ilin dekabrında Kipoidəki kompressor stansiyasında boruların quraşdırılması və qaynağı işlərinə start verilib. Hər 3 stansiya üçün kənar boru istehsalına da başlanılıb. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən iki il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. TAP qaz boru kəməri üçün lazım olan turbo kompressorlar isə "Siemens" şirkəti tərəfindən istehsal edilib.

Layihə İtaliyada da qrafik üzrə irəliləyir. 2015-ci il mayın 20-də İtaliyanın İqtisadiyyat Nazirliyi tərəfindən verilən əsas icazə sənədinə uyğun olaraq TAP-ın inşasına dair digər ikinci dərəcəli icazələrin alınması üzrə işlər davam etdirilir. TAP-ın 8 kilometrlik İtaliya hissəsinin inşası çərçivəsində ötən ilin mart-iyul aylarında mikrotunelin tikiləcəyi ərazidən zeytun ağacları çıxarılıb. Həmin ağaclar yaxınlıqdakı bir uşaq bağçasına ("Masseria del Capitano") köçürülüb. Ağaclar burada təmənnasız saxlanılacaq və onlara müvafiq qulluq göstəriləcək. Boru kəmərinin tikintisi başa çatdıqdan sonra həmin zeytun ağacları öz yerlərinə geri qaytarılacaq. Bundan başqa, TAP-ın dəniz hissəsinin inşasında istifadə olunacaq boruların sonuncu partiyası da keçən il sentyabrın 3-6-da İtaliyanın Brindisi bölgəsində boşaldılıb.

TAP-ın Adriatik dənizindən keçəcək 105 kilometrlik hissəsinin tikintisini həyata keçirəcək İtaliyanın "Saipem S.p.A" şirkəti hazırda mikrotunel sahəsində çalışır. Burada müvəqqəti yol və sahə hazırlığı tamamlanıb. TAP-ın podratçısı hazırda mikrotunelin tikintisini həyata keçirmək üçün çuxurun qazılması işlərini görür. Boru kəmərinin dəniz hissəsi 2018-2019-cu illərdə inşa ediləcək. Boru kəmərinin Adriatik dənizindən keçəcək 36 düymlük hissəsi Albaniya və İtaliyanın cənub sahili arasında dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə və təqribən 105 kilometr uzunluğunda olacaq. "Saipem S.p.A" şirkəti mikrotunel daxil olmaqla, Albaniya və İtaliyada tikinti işlərini, dəniz boru kəmərinin quraşdırılmasını, fiber-optik kabel təchizatını və quraşdırılmasını həyata keçirəcək. İzolyasiya edilmiş 36 düymlük borular və digər qurğular isə TAP tərəfindən təmin olunacaq.

TAP layihəsi Avropa enerji bazarı üçün son illər irəli sürülən ən önəmli layihələrdəndir. Layihənin strateji əhəmiyyəti onun enerji təminatının təhlükəsizliyini, mənbələrin və marşrutların şaxələndirilməsini əks etdirməsindən irəli gəlir. Bu amillər hazırda enerji tələbatının yarıdan çoxunu xarici mənbələr hesabına təmin edən və daxili enerji istehsalında nəzərəçarpacaq qıtlıq yaşayan Avropa İttifaqı üçün olduqca vacibdir. Bu baxımdan TAP Avropanın enerji siyasətində mühüm əhəmiyyət kəsb edir. TAP-ın keçdiyi 3 ölkədə işçilər 65 milyon kilometrədək yol qət edib və təxminən 25 milyon nəfər-saat iş görülüb. Boru kəməri 2020-ci ildə Azərbaycanın "Şahdəniz-2" yatağından ilk qazı almağa hazır olacaq.

İndiyədək Cənub Qaz Dəhlizinə daxil olan layihələrdə "Cənub Qaz Dəhlizi" QSC-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə qoyulan 9 milyard dollar vəsaitin 0,7 milyard dolları TAP layihəsinə xərclənib. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

DƏNİZ

1 iyun 2018-ci il № 41-44 (9227)

"MƏRDƏKAN" GƏMİSİNDƏ HƏR ŞEY MƏKTƏBLİLƏRİN ÜRƏYİNCƏ OLUB

"Ankara məktəbi" məktəb-liseyin bir qrup şagirdi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasına məxsus yeni istismara verilən "Mərdəkan" gəmisində olub.

"FIRST LEGO League (FLL) Azərbaycan" mühəndislik və robot texnikası yarışında iştirak üçün gəmidə araşdırma aparan IV sinif şagirdləri onları maraqlandıran suallara yerində cavab tapıblar. Bu işdə şagirdlərə gəminin kapitanı və digər heyət üzvləri kömək ediblər. Uşaqlara gəmi və dənizçilik haqqında ətraflı məlumat verilib.

Bundan başqa, məktəblilərə gəmini gəzmək imkanı yaradılıb. Kapitan körpüsü, maşın şöbəsi, kayutlara baş çəkən şagirdlər ilk dəfə gəmidə olduqlarını deyərək, heyətə təşəkkürlərini bildiriblər.

"Hidrodinamika: suyun səyahəti" mövzusuna həsr edilmiş yarışa qatılan məktəblilər əyləncəli bir mühitdə elmi və texnoloji xarakterli problemləri qaldırıb və onların həlli yollarını araşdırmağa cəhd ediblər. "Ankara məktəbi" məktəb-liseyin "Atlantida" komandası Layihə nominasiyası üzrə I yerə layiq görülüb.

FIRST LEGO League (FLL) – 10-16 yaşlı məktəblilər üçün STEM (elm, texnologiya, mühəndislik və riyaziyyat) əsaslı robot texnologiyaları turniridir.

DƏNİZ NƏQLİYYATI DONANMASINDA "ÜMUMİ HƏYƏCAN" TƏLİMİ KEÇİRİLİB

Gəmiçiliyin Dəniz Nəqliyyatı Donanmasında (DND) bilavasitə Donanma rəisinin tapşırığı və Əməyin mühafizəsi, təhlükəsizlik texnikası və ekologiya (ƏMTTE) şöbəsinin təşəbbüsü ilə DND-nin Fövqəladə Hallar (FH) Komitəsinin sədrini, habelə Mülki Müdafiə (MM) Qərargahının rəisi və MM rəhbərlərini məlumatlandırmaqla günün ikinci yarısında "Yanğın" həyəcan siqnalı verilərək inzibati binada "Həyəcan" təliminə başlanmışdır.

İnzibati binada çalışan əməkdaşlar təxliyə olunaraq təyin edilmiş "Toplantı" yerinə yönəlmişlər. ƏMTTE və MM əməkdaşları öz vəzifə borclarına başlamışlar.

Təlimin növbəti mərhələsində FH Komitəsinin sədri və ƏMTTE şöbəsinin rəisi əməkdaşların bacarıq və səriştəsinin səviyyəsini yüksəltmək məqsədilə lazımi tövsiyələrini vermişlər. Yanğın profilaktikasının əməkdaşı isə yanğından mühafizə təlimi keçirmişdir.

Bu yönümdə təlimlərin gələcəkdə də mütəmadi olaraq keçirilməsi planlaşdırılır.

NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRİ "NƏQLİYYAT TƏHLÜKƏSİZLİYİ" MÖVZUSUNDA SAMMİTDƏ İŞTİRAK EDİB

Almaniyanın Leypsiq şəhərində Beynəlxalq Nəqliyyat Forumunun (BNF) "Nəqliyyat təhlükəsizliyi" mövzusunda illik sammiti keçirilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildiriblər ki, sammitdə BNF üzvü ölkələrin nəqliyyat üzrə məsul nazirləri, biznes nümayəndələri, beynəlxalq təşkilatların rəhbərləri, aparıcı tədqiqatçılar iştirak ediblər.

Azərbaycanı sammitdə nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadənin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Tədbirdə nəqliyyatda təhlükəsizliyin təmin olunması, ekoloji təmiz nəqliyyatın təşkili, şəhər və regionlarda "ağıllı" nəqliyyat sisteminə keçid, nəqliyyat və iqlim dəyişiklikləri, səmərəli avtomobil daşımaları üçün maneələrin aradan qaldırılması, nəqliyyatın rəqəmsal avadanlıqlardan asılılığı və digər mövzular ətrafında müzakirələr aparılıb və çıxışlar dinlənilib.

Ramin Quluzadə nəqliyyatda təhlükəsizlik və avtomobil daşımaları sahəsində maneələrin aradan qaldırılması mövzuları üzrə keçirilən nazirlər sessiyasında çıxış edib. Nazir ölkəmizdə həyata keçirilən layihələr, görülən işlər, həmçinin nəqliyyat və logistika sahəsində informasiya-kommunikasiya texnologiyalarının, innovativ sistemlərin tətbiqi barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Bundan başqa, tədbir çərçivəsində Ramin Quluzadə ilə Latviya, Ukrayna, Moldova respublikalarının sahə üzrə müvafiq qurumlarının rəhbərləri, eləcə də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Beynəlxalq Katibliyinin baş katibi arasında ikitərəfli görüşlər keçirilib. Görüşlərdə nəqliyyat sahəsində əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

"İQTİSADİ İMKANLARIN YARADILMASI ÜÇÜN NƏQLİYYAT VƏ LOGİSTİKADAN İSTİFADƏ"

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində Dünya Bankının birgə təşkilatçılığı ilə "Bilik sərgisi" keçirilib.

"İqtisadi imkanların yaradılması üçün nəqliyyat və logistikadan istifadə" adlı sərgidə Dünya Bankının bu sahədə apardığı təhlil və qiymətləndirmənin nəticələri təqdim olunub. Müzakirə zamanı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, Azərbaycanda aparılan mühüm iqtisadi islahatlar nəticəsində iqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun inkişafında mühüm rolu olan nəqliyyat infrastrukturu müasirləşdirilib. Həmçinin tranzit imkanlarının genişləndirilməsi üçün vacib işlər görülür, modern nəqliyyat infrastrukturu yaradılır, tranzit potensialı artırılır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi üçün işlər görülür. Bütün bunlar Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirir, ölkəmizin dünyada və regionda mövqeyini daha da möhkəmləndirir.

Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Navid Həsən Naqvi "Bilik sərgisi"nin mahiyyətindən danışaraq bildirib ki, təmsil etdiyi qurum ölkəmizdə bir sıra ciddi layihələr həyata keçirir.

"Bilik sərgisi" çərçivəsində iştirakçılara "Nəqliyyat Dəhlizləri və İqtisadi İnkişaf", "Qafqaz nəqliyyat dəhlizi: Onu necə rəqabətədavamlı və səmərəli yükdaşıma dəhlizinə çevirməli" mövzusunda təqdimatlar nümayiş olunub, dövlət, özəl qurumların, qeyri-hökumət təşkilatlarının və akademik ictimaiyyətin nümayəndələri ilə geniş fikir mübadiləsi aparılıb.

YENİ KƏŞFİYYAT VƏ HASİLAT LAYİHƏLƏRİ HAQQINDA İKİ SAZİŞ İMZALANIB

Mayın 30-da SOCAR ilə Norveçin "Equinor" qrupunun bir hissəsi olan "Statoil Azərbaycan" şirkəti "Xəzər dənizinin Azərbaycan sektorunda "Qarabağ" neft yatağının işlənməsi ilə əlaqədar risk xidməti" (RXS) və "Xəzər dənizinin Azərbaycan sektorunda Əşrəfi-Dan Ulduzu-Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü" (HPBS) haqqında sazişləri imzalayıblar.

Sazişləri SOCAR-ın prezidenti Rövnəq Abdullayev və "Equinor" qrupun yataqların kəşfiyyatı üzrə icraçı vitse-prezidenti Tim Dodson imzalayıb.

"Qarabağ" yatağında kəşfiyyat qazması cari ildə planlaşdırılır. Hazırkı Risk Xidməti Sazişinə əsasən, yataqda platformanın quraşdırılması və ilk hasilat 2021-ci ildə nəzərdə tutulur. HPBS çərçivəsində isə seysmik kəşfiyyat işlərinin yerinə yetirilməsi və ilk kəşfiyyat quyusunun qazılması nəzərdə tutulur. Layihələrin icrası üçün Statoil və SOCAR tərəfindən 50-50 birgə əməliyyat şirkəti yaradılacaq.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev deyib: "Biz bu gün SOCAR və "Equinor" arasında əməkdaşlığın yeni mərhələsinə qədəm qoyuruq. 25 illik təcrübəyə əsaslanan tərəfdaşlıq bağları yeni layihələrimizin maksimum səmərə ilə birgə işlənməsi üçün münbit zəmin yaradır. Bu gün imzalanan sazişlər Azərbaycanda neft hasilatının stabilləşməsi və ölkədə təbii qaza artan tələbatın qarşılanması baxımından, o cümlədən emal sənayesinin xammal ilə təchiz edilməsi üçün mühüm əhəmiyyət kəsb edir."

"Equinor" qrupunun prezidenti və baş icraçı direktoru Eldar Saetre bildirib: "Bu gün imzalanan sazişlər regionda növbəti məntiqli addımımızdır. Bu, bizim məhsuldar hövzələrdə mövqeyimizi möhkəmləndirəcək və inkişaf istiqamətlərini müəyyənləşdirəcək. Yataqlar bizim yaxşı tanıdığımız bir hövzədə Azəri-Çıraq-Günəşli (AÇG) yatağının yaxınlığında yerləşir. Biz SOCAR ilə birlikdə bu yeni kəşfiyyat layihələri üzrə işləməyi planlaşdırırıq."

Xatırladaq ki, "Qarabağ" perspektivli dəniz strukturu kimi 1959-cu ildə seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilib, 1984-cü ildə dəqiqləşdirilib və 1997-1998-ci illərdə kəşfiyyat qazması nəticəsində neft-qazlılığı təsdiqlənib. Yataq Bakıdan şərq istiqamətində 120 kilometr aralı, açıq dənizin 150-200 metr dərinliyində yerləşir. "Dan Ulduzu" və "Əşrəfi" perspektiv strukturları Xəzər dənizində, Bakıdan şimal-şərqə doğru 100-110 kilometr məsafədə yerləşir. Burada dənizin dərinliyi 80-180 metrdir. "Aypara" sahəsi Bakı şəhərindən 90 kilometr şimal-şərqdə, açıq dənizdə yerləşir, 1980-ci ildə seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilib.

"Equinor" AÇG layihəsində 7,27 faiz, Bakı-Tbilisi-Ceyhan (BTC) layihəsində isə 8,71 faiz paya malikdir. "Statoil Azərbaycan" bu yaxınlarda adı dəyişmiş "Equinor"un (keçmiş "Statoil") bir hissəsidir və adı dəyişdirilib "Equinor Azərbaycan" olacaq.

QƏRİ COUNZ: "ŞƏFƏQ-ASİMAN" PERSPEKTİV STRUKTURU YENİ "ŞAHDƏNİZ" OLA BİLƏR

"Şəfəq-Asiman" perspektiv strukturu yeni "Şahdəniz" ola bilər.

AZƏRTAC xəbər verir ki, bu barədə Bakıda keçirilən XXV "Caspian Oil and Gas" konfransında BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib.

O bildirib ki, 2010-cu ilin oktyabr ayında BP ilə SOCAR Xəzər dənizinin Azərbaycan sektorundakı "Şəfəq-Asiman" perspektiv strukturunun birgə geoloji-kəşfiyyatı və işlənməsi haqqında hasilatın pay bölgüsü sazişi (HPBS) imzalayıb. HPBS-nin müddəti 30 ildir və sazişə əsasən "BP Exploration (Caspian Sea) Ltd." şirkəti əməliyyatçı olmaqla müqavilədə 50 faiz paya, SOCAR isə qalan 50 faiz paya malikdir. "Şəfəq-Asiman" bloku Bakıdan təxminən 125 ki-

lometr (78 mil) cənub-şərqdə yerləşir və təxminən 1 100 kvadrat kilometr ərazini əhatə edir. Bu dəniz blokunda indiyədək heç bir geoloji-kəşfiyyat işi aparılmayıb. Blok dənizin dərinsulu hissəsində suyun dərinliyinin təxminən 650-800 metr olduğu bir ərazidə yerləşir və kollektorun dərinliyi təxminən 7 min metrdir: "2012-ci ilin əvvəllərində "Giləvar" seysmik gəmisi "Şəfəq-Asiman" üzrə 3 ölçülü seysmik tədqiqat proqramını başa çatdırandan bəri biz əldə edilmiş məlumatın təhlilini aparırıq. Bu, həmin müqavilə ərazisində indiyədək aparılmış ilk 3 ölçülü seysmik tədqiqatdır. 2014-cü ilin birinci yarısında məlumatın təhlili tamamlandı və onun interpretasiyasına başlanıb. "Şəfəq-Asiman" üzrə ilk kəşfiyyat quyusunun planlaşdırılması işləri də davam etməkdədir. "Şəfəq-Asiman" perspektiv strukturu yeni "Şahdəniz" ola bilər".

"FOREİGN POLİCY": AZƏRBAYCAN QƏRBƏ NİYƏ BU DƏRƏCƏDƏ LAZIMDIR?

ABŞ-da çıxan "Foreign Policy" jurnalında "Heritage" Amerika Fondunun Duqlas və Sara Ellison adına xarici siyasət mərkəzinin direktoru Lük Koffinin və "Caspian Policy Center" analitik mərkəzinin direktoru Əfqan Niftinin "Azərbaycan Qərbə niyə bu dərəcədə lazımdır?" sərlövhəli məqaləsi dərc edilib.

Məqalədə bildirilir ki, enerji ehtiyatlarını və digər malları Asiyadan Avropaya nəql etmək üçün 3 yerüstü marşrut var - İran, Rusiya və Azərbaycan marşrutu. Qərbin Rusiya və İranla münasibətləri korlandığına görə, yüz milyardlar dəyərində ticarət əməliyyatları üçün təkcə bir marşrut – Azərbaycandan keçən marşrut qalır. Müəlliflər qeyd edirlər ki, ticarət yolları Azərbaycanın Gəncə şəhəri yaxınlığındakı ensiz ərazidən keçir. Çünki Ermənistan cənub tərəfdən Azərbaycan ərazisinin beşdəbir hissəsini işğal edib.

Əgər Avropa neft və qazın yeganə tədarükçüsündən asılılığı azaldarsa, Vaşinqtona bundan yalnız fayda gələcəkdir. Koffi və Nifti qeyd edirlər ki, hazırda regionda 3 iri boru kəməri vardır ki, bunlar da Azərbaycanın Gəncə şəhəri yaxınlığından keçir: bu ölkədən Gürcüstan vasitəsilə Türkiyənin Aralıq dənizi limanına çatan Bakı-Tbilisi-Ceyhan boru kəməri, Xəzər dənizindən Qara dəniz sahilindəki limana neft nəql edən Bakı-Supsa boru kəməri və Azərbaycandan Türkiyəyə ötürülərək Avropaya qaz tədarük edən Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan Cənubi Qafqaz boru kəməri.

Neft-qaz yolları ilə yanaşı, Avropanı Asiya ilə birləşdirən texnoloji dəhliz də mövcuddur. Qərbi Avropanı Xəzər regionu ilə birləşdirən optik-lifli kabellər də Gəncə yaxınlığında olan ərazidən keçir. Atlantik okeanı sahillərində Fransanın Brest şəhərini Qırğızıstan-Çin sərhədində yerləşən Erkeştamla birləşdirən, Avropanın ikinci ən uzun avtomagistralı olan E60 Gəncə şəhərindən keçir. Buraya heç də az əhəmiyyət kəsb etməyən Bakı-Tbilisi-Qars dəmir yolunu da əlavə etmək olar.

"Gəncə dəhlizi" NATO-nun Əfqanıstanda davam edən missiyası çərçivəsində ABŞ və NATO qoşunlarının təchizatında da böyük əhəmiyyət kəsb edir. Hərbi əməliyyatların gərgin dövründə məhvedici təsirə malik olmayan materialların üçdəbirindən çoxu, o cümlədən yanacaq, ərzaq malları və geyim Azərbaycanın yerüstü və hava məkanı vasitəsilə keçirilib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan müəl-

FP

ARGUMENT: Why the West Needs Azerbaijan

Why the West Needs Azerbaijan

There is only one way for vital Asian oil and gas resources to reach Europe without passing through Russia and Iran: through the narrow "Ganja Gap."

BY LUKE COFFEY, EFGAN NIFTI | MAY 28, 2018, 7:00 AM

liflər yazir ki, döyüş əməliyyatları nəticəsində 30 min insan həlak olub, yüz minlərlə insan isə məcburi köçkünə çevrilib. Erməni silahlıları 1992-ci ildən başlayaraq Azərbaycanın Dağlıq Qarabağ regionunu və ona bitişik yeddi rayonu işğal ediblər. Qərbin Ermənistana təzyiq vasitələri nisbətən məhdudlaşıb. Müxalifət lideri Nikol Paşinyanın hakimiyyətə gəlməsinə baxmayaraq, Ermənistanın iqtisadiyyatı və təhlükəsizlik sistemi üçüncü tərəfdən asılı olaraq qalmaqdadır.

Müəlliflər qeyd edirlər ki, Şərqlə Qərb arasında mühüm ticari, energetika və iqtisadiyyat əlaqələrinin daha da möhkəmləndirilməsi üçün ABŞ və Avropa Bakı ilə münasibətlərə prioritet diqqət ayırmalıdırlar. Qərb Ermənistan ilə yaxşı münasibətlərə səylərini davam etdirməli, lakin Birləşmiş Ştatlar regionda öz strateji prioritetlərini müəyyənləşdirərkən daha diqqətli və realist olmalıdır. Məqalədə daha sonra deyilir ki, ABŞ-ın Ermənistan ilə münasibətlərindən fərqli olaraq, 1990-cı illərin əvvəllərindən başlayaraq, bir çox sahələrdə, ilk növbədə, energetika əməkdaşlığında, 2001-ci ilin 11 sentyabrından isə terrorizmlə mübarizə sahəsində ABŞ-Azərbaycan münasibətlərində irəliləyiş müşahidə olunur.

Tramp administrasiyasının milli təhlükəsizlik strategiyasında sabit müttəfiqlərlə yaxşı münasibətlərin inkişafına xüsusi əhəmiyyət verilir. Cənubi Qafqaza münasibətdə bu siyasətin zəruriliyi daha çox gözə çarpır. Məqalənin sonunda bildirilir ki, regionda gərginliyin azaldılması həyati əhəmiyyətə malik olan energetika, kommunikasiya və ticari dəhlizlərin təminatına kömək olacaq.

Yusif Babanlı

BEYNƏLXALQ GƏMİÇİLİK ŞİRKƏTİNİN ƏMƏKDAŞLARI ADDA-NIN TƏLİM-TƏDRİS MƏRKƏZİNDƏ KURS KEÇİBLƏR




Nüfuzlu beynəlxalq gəmiçilik şirkəti "Columbia Shipmanagement Ltd"-nin Gürcüstan nümayəndəliyinin əməkdaşları Azərbaycan Dövlət Dəniz Akademiyasının Təlim-Tədris Mərkəzində "Gəminin idarəolunması və manevr edilməsi" təlimində iştirak ediblər.

5 gün davam edən təlim ingilis dilində keçirilib. Sonda iştirakçılar imtahan verərək yüksək nəticələr əldə ediblər.

"Columbia Shipmanagement Ltd"-nin əməkdaşları tədris prosesindən tam razı qaldıqlarını, təlimin beynəlxalq konvensiyaların tələblərinə uyğun təşkil edildiyini bildiriblər.

Təlim çərçivəsində iştirakçılar mərkəzin texniki təchizat imkanları ilə də tanış olublar. Onlara məlumat verilib ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Təlim-Tədris Mərkəzi 2014-cü ildən fəaliyyət göstərir. Hazırda Təlim-Tədris Mərkəzi dünyada "DP İnduction" və "DP Simulator" təlimlərinin keçirilməsinə səlahiyyəti olan 95 mərkəzdən biri, Azərbaycanda isə yeganə təşkilatdır.

Xatırladaq ki, "Columbia Shipmanagement Ltd" 30 ildən artıq dənizdə insan həyatının mühafizəsi və müxtəlif təyinatlı gəmilərinin təhlükəsiz daşıma əməliyyatları, həmçinin gəmi heyətinin idarəedilməsi sahəsində fəaliyyət göstərən aparıcı şirkətlərdən biridir. Dünyanın bir çox ölkəsində nümayəndəlikləri olan "Columbia Shipmanagement Ltd"-nin idarəçiliyində hazırda 1500-dən çox gəmi mövcuddur.

DƏNİZ NƏQLİYYATI İLƏ DAŞINAN YÜKLƏRİN HƏCMİ ARTIB

Cari ilin yanvar-aprel aylarında dəniz nəqliyyatı ilə daşınmış yüklərin həcmi 2 milyon 842,5 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 12,4 faiz artıb. Yüklərin 51,5 faizini neft yükləri təşkil edib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, dəniz limanlarında 3 milyon 381,7 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib. Yüklərin 3 milyon 198,6 min tonunu və ya 94,6 faizini tranzit yüklər təşkil edib. Bu il may ayının 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 74,6 min ton idxal yükləri olub.

İKİLİ STANDARTLAR MƏNGƏNƏSİNDƏ



Avropa İttifaqı və ABŞ Dövlət Departamenti Kerç körfəzindən körpü açılmasını pisləyiblər.

ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Hizer Noyertin sözlərinə görə, Krım Ukraynanın tərkib hissəsidir, bu körpü isə Ukraynanın hakimiyyət orqanlarının icazəsi olmadan tikilib.

Amerika xarici siyasət idarəsinin fikrincə, bu qurğu "Ukraynanın Azov dənizindəki ərazi sularına keçmək üçün yeganə yol olan Kerç körfəzindən keçə biləcək gəmilərin ölçülərinin məhdudlaşdıraraq naviqasiyaya mane olur".

Noyert deyib: "Biz Rusiyanı bu gəmiçiliyə mane olmamağa çağırırıq".

Elə həmin gün Avropa İttifaqı da Rusiyadan Krıma körpü açılmasını pisləyib. Avropa xarici siyasət xidmətinin (EEAS) məlumatında deyilirdi ki, Kiyevin icazəsi olmadan körpü tikilməsi Ukraynanın suverenliyinin və ərazi bütövlüyünün növbəti dəfə pozulmasıdır.

Amma Ermənistan Laçını işğal edəndən sonra Gorusdan Azərbaycanın Qarabağ bölgəsinə, sonra isə Vardenisdən (keçmiş Basarkeçər) Kəlbəcərə yol tikəndə biz istər ABŞ, istərsə də Aİ tərəfindən bu cür prinsipiallıq görmədik.

Vüqar Seyidov

AZƏRBAYCAN ÇİNDƏ İPƏK YOLU BEYNƏLXALQ İNVESTİSİYA VƏ TİCARƏT FORUMUNDA TƏMSİL OLUNUB

Çinin Sian şəhərində 3-cü İpək Yolu Beynəlxalq İnvestisiya və Ticarət Forumu keçirilib.

Çin Kommersiya Nazirliyinin, Şansi vilayət hökumətinin və Sian şəhəri kommersiya idarəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə "Bir kəmər, bir yol" strategiyasının əhatə etdiyi ölkələr, o cümlədən Azərbaycan təmsil olunub.

İpək Yolu üzərində yerləşən ölkələr arasında ticarətin inkişafı, dövlətlərin ticari əlaqələrinin genişləndirilməsi, yeni ticarət növlərinin tətbiqi məsələlərinin müzakirəsi məqsədilə keçirilən tədbir çərçivəsində müxtəlif mövzularda "dəyirmi masa"lar təşkil olunub.

"İpək Yolu ticarət əməkdaşlığı" mövzusunda "dəyirmi masa"da çıxış edən Azərbaycanın Çindəki ticarət nümayəndəsi Teymur Nadiroğlu ölkəmizin "Bir kəmər, bir yol" təşəbbüsünün həyata keçirilməsinə verdiyi töhfələrdən danışıb. Bildirib ki, Azərbaycan özünün tranzit-logistika imkanları, o cümlədən Transxəzər nəqliyyat və ticarət dəhlizi, Avropa ilə Asiya arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars xətti, Ələt ticarət limanının imkanları ilə bu təşəbbüsün reallaşmasında vacib rol oynayır.

T.Nadiroğlu çıxışı zamanı ölkəmizdə elektron ticarətin inkişafından da danışıb.

Şahin Cəfərov

XXI ƏSRİN ORTALARINDA PLANETİMİZDƏ YAŞAYAN İNSANLARIN SAYI 9,8 MİLYARD NƏFƏRƏ ÇATACAQ

Rusiya Federasiyasının əhalisinin sayı 2050-ci ilədək 132,7 milyon nəfərə qədər azalacaq. Bu proqnoz mayın 16-da BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə Departamenti tərəfindən səsləndirilib.

TASS informasiya agentliyi xəbər verir ki, milli statistika agentliklərinin məlumatına əsaslanan təşkilatın hesablamalarına görə, hazırda Rusiyada təxminən 144 milyon insan yaşayır, bununla yanaşı, şəhər əhalisinin payı 74,4 faiz (107,2 milyon) təşkil edir. Sənəddə deyilir ki, 2050-ci ilədək ölkə əhalisinin ümumi sayı 132,7 milyon nəfərə qədər azalacaq, şəhərdə yaşayan insanların nisbəti isə 83,3 faizə yüksələcək.

BMT-nin məlumatına əsasən, 2050-ci ilə qədər dünya şəhərlərində yaşayan əhalinin sayı 6,7 milyard nəfərə çatacaq. 2028-ci ilə qədər isə Dehli şəhəri əhalisinin sayına görə hazırkı rekordçu Tokionu qabaqlayaraq dünyanın ən böyük meqapolisi olacaq. Hesablamalara görə, on ildən sonra Nyu-Dehli şəhəri də daxil olmaqla Hindistanın aqlomerasiyasında 37,2 milyon insan yaşayacaq. Hazırda dünyanın ən iri şəhəri aqlomerasiyasında 37 milyon nəfərin yaşadığı Tokiodur. Onun ardınca gələn Dehlidə 29 milyon, Şanxaydə 26 milyon, Mexiko və San-Paulu şəhərlərinin hər birində isə 22 milyon nəfər yaşayır.

Hazırda dünya əhalisinin sayı 7,6 milyard nəfərdir ki, onların 55 faizi şəhərlərdə məskunlaşıb. XXI əsrin ortalarında isə planetimizdə yaşayan insanların sayı 9,8 milyard nəfərə çatacaq və urbanizasiya nəticəsində şəhərlərdə yaşayan əhalinin sayı 68 faizə yüksələcək.

ÜZƏN GÜNƏŞ ELEKTRİK STANSİYASI QURULUR

İranda ilk üzən günəş elektrik stansiyası (GES) qurulur.

İranın cənub-şərqində yerləşən Sistan və Belocistan əyalətlərində quraşdırılacaq stansiya 7 meqavat gücə malik olacaq. Zahak şəhərində inşa ediləcək GES 14 hektar ərazini əhatə edəcək. Stansiyanın tikintisi üçün 8,5 milyon avro ayrılıb.

Hazırda 400 meqavat olan İranın günəş və külək enerjisi üzrə generasiya gücünün ilin sonuna 1400 meqavata çatması gözlənilir. Qarşıdakı 5 il ərzində isə İran bərpaolunan enerji qurğularının gücünü 5 min meqavata yüksəltməyi hədəfləyir.

İranın elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payı 6 faizdir. Ölkədə elektrik enerjisinin 90 faizi təbii qazdan alınır.

DÜNYANIN İLK ÜZƏN ATOM STANSİYASINA YANACAQ VURULACAQ

Rusiyanın inşa etdiyi və təxminən 100 min əhalisi olan Pevek şəhərinin elektrik enerjisinə olan tələbatını ödəyəcək dünyanın ilk üzən atom elektrik stansiyasına (AES) yanacaq yüklənəcək.

Bu barədə "Rosatom" məlumat yayıb. Bildirilir ki, "Academic Lomonosov" adlı AES yanacaq doldurmaq üçün Rusiyanın şimal-qərbindəki Murmanska gəlib. Üzən AES Murmanska getmək üçün Baltik, Şimal, Norveç və Barens dənizlərini keçərək 4 min kilometr yol qət edib.

Qarşıdakı aylarda yanacağın doldurulma prosesi tamamlandıqdan sonra "Academic Lomonosov" Rusiyanın uzaq şərqindəki Çukot muxtar diyarının Pevek şəhərinə gedəcək və 2019-cu ildə şəbəkəyə qoşulacaq.

"Rosatom" Dövlət Korporasiyasının baş direktoru Alexey Likhachev "Academic Lomonosov"un bu qəbildən olan ən unikal AES olduğunu deyib.

Təxminən 70 meqavat gücü olan AES 2021-ci ildə tam tutumda enerji istehsal edəcək. Üzən AES-in istismar müddəti 40 ildir. AES istilik və elektrik enerjisi istehsalı ilə yanaşı dəniz suyunun şirinləşdirilməsi üçün də istifadə olunacaq.

YARIZARAFAT, YARIGERÇƏK

Ağa qara deyənlər qaraya nə deyirlər?

Ağız deyəni qulaq eşitməyən yerdə güc əl-qola düşər.

Mərdin kürəyi böyük olar, namərdin kələyi.

Üzə bilməyənin gözü dənizdə, uça bilməyənin gözü göydə olar.

Harada ki, həqiqəti eşitmək istəmirlər, orada yalanlar qulaq batırar.

Dostun varsa layiq, düşmənin varsa sayıq ol.

On dəfə şeytanın qıçını sındırınca, bir dəfə başını əz.

Heç yerə getməyəndə də xəyalım min yerə gedir.

Bəlalar hətta öyrənmək istəməyənə də çox şey öyrədir.

Dünyanın düz vaxtı bir də nə vaxt olacaq?

Kadr ehtiyatı başqa şeydir, ehtiyatlı kadrlar tamam başqa şey.

Kimin kim olduğunu Allahdan başqa bilən olmaz.

Dostu düşməndən ayıra bilməyənin başı həmişə qalda olar.

Yurduma göz dikən düşmənə yalnız bir məzarlıq torpaq ayırmaq olar.

Əvvəl Vətən, sonra mən.

Qəribədir, ömründə yaxşı iş görməyənlər başqalarından ancaq yaxşı işlər gözləyirlər.

Tövbə qapısı həmişə açıq olduğu üçün heç kəs tövbə etməyə tələsmir?

Bütün dövrlərdə hazıra nazirlərin işi həmişə "xod" gedib.

Kimisə atmışam, kiməsə atmamışam.

Bir iki, üç... Allahım, bir adamın neçə üzü olar?

İmkan veririk və hər kəs də verdiyimiz imkan daxilində yalan danışır.

Yağla şorun fərqini bilməyən heç vaxt fərqli düşünə bilməz.

Cavan olanda da başlı olmağa çalış, yaşlı olanda da.

Həmişə əyri yollarla gedənin cəhənnəmə gedən yolu düz olar.

Özündən razılıq özünü aldatmaqdır.

Böyüklərin üzündə gülməli nə var ki, böyüklərin üzünə ancaq gülürlər?

Vəziyyət də dəyişir, yaltaqlar da. Bircə yaltaqlıq dəyişmir.

Kürəyimdə tanıdığım hər namərddən bir nişanə var.

Adam var o yana gedir, bu yana gedir, üstəlik işi də gedir.

Bəzilərinə ip vermək olmaz. Ucuzluğa çox gedirlər.

Belə baxanda işdə ən sərfəli adam mənəm. Günahları kiminsə boynuna tökməyə adam axtarılan yerdə məndən münasib adam?

Həqiqətə oxşayan bütün yalanlardan yalana oxşayan bir həqiqət yaxşıdır.

Bəzi adamları görəndə nədənsə mahnı oxumaq istəyirəm:"Olmaz, olmaz, olmaz!"

Qoltuğuma verilən qarpızların bazar qiyməti neçədir?

Söz var adamın dilindən çəkirlər, dil var adamı özünə çəkir.

Fikir vermisiniz, dil yalana o qədər alışıb ki, indi çaşanda da düzünü demir.

Yalan insanı hansısa ucalığa qaldıra bilər, amma həmin ucalıqda saxlaya bilməz.

Hər kəs alın yazısını özü yazır. Köçürmək mümkün deyil.

Donlara baxanda bilinir ki, indi məsləhəti daha çox qulaq ardına vururlar.

Nə udduğumu bilmirəm, amma deyəsən bir ömür itirdim.

Başqa şeyləri deyə bilmərəm, işi adətən işgörənə verirlər.

Həyatda yaxşılıq etdiyim adamlardan daha çox pislik gördüm.

Heç xəyallarımda da uçmaq xülyasına düşmədim.

Səhvə yol vermə ki, səhvlərin də səni yoldan etməsin.

Rasif TAHİROV

DƏNİZ

1 iyun 2018-ci il № 41-44 (9227)

SƏHƏR YEMƏYİNİN ƏHƏMİYYƏTİ

Səhər yeməyi ən vacib qidalardan sayılır. Təsadüfi deyildir ki, həkimlərin əksəriyyəti onun böyük əhəmiyyətə malik olduğunu söyləyirlər. Səhərlər qida qəbul etmək orqanizmi işə salır, onu lazım olan enerji ilə təmin edir.

Təəssüf ki, çoxları səhərlər qidalanmağa lazımi əhəmiyyət vermir və ən yaxşı halda bir fincan qəhvə, çay və buterbrodla kifayətlənirlər. Bir çoxları isə ümumiyyətlə, səhər yemək yemirlər.

Daim səhər yeməyindən imtina etmək şəkərli diabet və infarktın yaranmasına səbəb ola bilər. Mütəxəssislər bildirirlər ki, orqanizmdə maddələr mübadiləsinə cavabdeh genlər var. Strukturda meydana çıxan qarışıqlıq prosesin nəzarətdən çıxmasına səbəb olur. Alimlər irəli sürdükləri nəzəriyyəni təcrübədə sübut etmək üçün 21-60 yaş arası iki qrupdan ibarət 49 könüllü arasında tədqiqat aparıblar. Birinci qrupa daxil olanlar təcrübə müddətində hər gün mütəmadi olaraq səhər yeməyi yeyiblər. Digər qrupun nümayəndələri isə günortaya qədər qida qəbul etməyiblər. İştirakçıların analiz nəticələrinə görə məlum olub ki, səhər yeməyi yeyənlərin orqanizmindəki maddələr mübadiləsində ciddi pozuntular müşahidə edilib.

Səhər yeməyi iş qabiliyyətini 30 faiz artırır. Onu qəbul etmək üçün ən uyğun vaxt saat 9-10 radələridir. Səhər yeməyi qəbul etməzdən ən azı bir saat qabaq oyanmaq lazımdır. Səhərlər qida qəbulu əhvali-ruhiyyəyə də yaxşı təsir göstərir, informasiyanı daha yaxşı qəbul etməyə və yadda saxlamağa kömək edir. Diyetoloqların fikrincə, səhər yeməyi gündəlik qida rasionunun 25 faizini təşkil etməlidir. Səhər yeməyi artıq çəkidən, eyni zamanda bir çox mədə-bağırsaq pozulmaları və xəstəliklərdən də qoruyur.

KARATEÇİLƏRİMİZ IV ƏLBƏYAXA DÖYÜŞ OLİMPİADASINDA VƏ KOSİKİ KARATE ÜZRƏ AÇIQ ASİYA KUBOKU YARIŞLARINDA UĞUR QAZANIBLAR

Rusiyanın Barnaul şəhərində IV Əlbəyaxa Döyüş Olimpiadası və kosiki karate-do üzrə açıq Asiya kuboku yarışları keçirilib.

15 növ üzrə keçirilən Olimpiadada kosiki karate yarışlarında 800 idmançı birincilik uğrunda mübarizə aparıb.

Yarışda ölkəmizi 5 idmançı təmsil edib. Bunkay kumite üzrə komanda yarışlarında Azərbaycan millisi bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Kişilərin kumite yarışlarında 18 yaşdan yuxarı karateçilərin mübarizəsində Renat Kuper gümüş medal qazanıb. 12-13 yaşlı qızların mübarizəsində Sevinc Mövsümzadə mötəbər yarışı birinci pillədə başa vurub.

Kata yarışlarında 12-13 yaşlı karateçilərin yarışında Sevinc Mövsümzadə bir daha fərqlənərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 14-15 yaşlı idmançıların mübarizəsində Alina Bərziqyarova ikinci olub.

Kişilərin kata yarışlarında Nazim Mövsümzadə qızıl, Ruslan Bərziqyar gümüş, Renat Kuper isə "kiçik bürünc" medala sahib olublar.

Qeyd edək ki, Olimpiadada ümumilikdə 3500-dən artıq idmançı, kosiki karate-do üzrə açıq Asiya kuboku yarışlarında isə 10 ölkədən atletlər birincilik uğrunda mübarizə aparıblar.

MESSİ BEŞİNCİ DƏFƏ "QIZIL BUTS"UN SAHİBİ OLUB

"Barselona" klubunun hücumçusu Lionel Messi 2017-2018-ci il mövsümünün ən yaxşı bombardiri kimi mükafatlandırılıb.

Argentinalı forvard öz karyerası ərzində beşinci dəfə "Qızıl buts" mükafatı alıb.

Mükafatı ona "Barselona" klubunda axırıncı oyununa çıxan Andres İnyesta sonuncu turda "Real Sosyedad"la keçirilən qarşılaşmada təqdim edib.

"Qızıl buts" mükafatına beşinci dəfə sahib olmaq üçün L.Messi ötən La Liqa oyunlarında 34 qol vurub. O, həmin mükafatı daha əvvəl 2009-2010-cu (34 qol), 2011-2012-ci (50 qol), 2012-2013-cü (46 qol) və 2016-2017-ci (34 qol) il mövsümlərində qazanıb.

FUTBOLÇUMUZ KOSOVO ÇEMPİONUDUR

Azərbaycan futbolçusu Amit Quluzadə "Drita" klubunun heyətində Kosovo çempionu olub.

Kosovo çempionatının sonuncu turunda Amit Quluzadənin formasını geyindiyi "Drita" "Priştina" klubu ilə qarşılaşıb. Futbolçumuzun komandasına əsas izləyicisi ilə görüşdə çempionluğu təmin etmək üçün heç-heçə də kifayət edib. Qarşılaşmada hesab açılmayıb.

Bu nəticə ilə xallarının sayını 67-yə çatdıran "Drita" ölkə çempionu olub. "Priştina" isə 64 xalla ikinci pilləni tutub.

Qeyd edək ki, A.Quluzadə Kosovo klubuna azad agent statusunda cari ilin yanvarında keçib. Bundan qabaq həmyerlimiz Portuqaliyanın "Atletiko" klubunda çıxış edib.

DAMAÇIMIZ MÖTƏBƏR TURNİRDƏ UĞURA İMZA ATIB

Polşanın Nidzitsa şəhərində xüsusi qrup insanlar arasında dama üzrə beşinci Avropa çempionatı keçirilib.

"Neftçi İdman Klubu"nun təmsilçisi, beynəlxalq usta Pərviz Həsənov mötəbər turnirdə uğura imza atıb. Damaçımız İsveçrə sistemi ilə keçirilən yarışda 7 tura 11 xal toplayaraq ilk dəfə Avropa çempionu adını qazanıb. Bundan əlavə, idmançımız rapid (sürətli proqram) turnirində də 1-2-ci yerləri bölüşərək yüksək ada layiq görülüb.

BOYUN UZANMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Boy insan həyatına birbaşa təsir edən amillərdən biridir. Uzunboylu olmaq kimlər üçün yaşamağa mane olan problem, kimlər üçünsə xəyaldır. Təbii ki, boyun nə qədər olması heç kəsin öz əlində deyil. Bu, bəzən valideynlərdən qalma miras, bəzən sağlam yaşamın nəticəsi, bəzənsə həyatın bəxşişidir.

Boyun uzanmasına müsbət təsir edən bir neçə amil var. Onlardan biri düzgün qidalanma və genetik faktorlardır. Xroniki xəstəliklər və böyümədə iştirak edən hormonlar da ona təsir göstərir. Boyun uzanması üçün uşaq yaşlarından düzgün qidalanmaya diqqət yetirilməlidir. Qidalanma zamanı lazımi qədər ət, süd, meyvə-tərəvəzlər yeməklə proteinlər qəbul etmək məsləhətdir.

Genetik olaraq qısaboyluluq zamanı qidalanma kömək etmir, lakin valideynlərin boyunun uca olmaması mütləq uşağın qısaboylu olmasına dəlalət etmir. Çünki valideynin boy inkişafı zamanı hansısa təsirə və əlavə faktorlara məruz qalması mümkündür.

Boy artımına təsir edən amillərdən biri də yaşa uyğun idmanla məşğul olmaqdır. İnkişaf dövründə üzgüçülük, gimnastika, basketbol, velosiped idmanı ilə məşğul olmaq boyun uzanmasına çox yaxşı təsir edir. Lakin bu, heç də o demək deyil ki, genetik boyu qısa olanlar idman məşğələləri nəticəsində standart ölçülərə nail ola bilərlər.

KÖKƏLMƏK ASAN DEYİL...

Bir çoxları artıq çəkidən xilas olmaq üçün müxtəlif proqram və reseptlərə əməl etdiyi halda kökəlmək arzusunda olanlar da az deyil.

Kökəlmək və ya orqanizmdə olan zəifliyi aradan qaldırmaq üçün ilk növbədə, onun dəqiq səbəbini öyrənmək lazımdır.

Bu, bir həqiqətdir ki, əksər hallarda kökəlmək arıqlamaqdan daha çətin olur. Çox yemək, iştahaartırıcı vitamin və preparatlar qəbul etmək də kökəlməyə səbəb olmur. Buna qalxanvari vəzin sürətlə işləməsi, iltihablı bağırsaq, ağır xroniki stress və depressiyalar, mədə-bağırsaq sistemi, onkoloji, eləcə də bəzi ağciyər və ürək xəstəlikləri səbəb ola bilər. Lakin heç bir ciddi pozulma və xəstəlik aşkar olunmazsa, arıqlığın digər səbəblərini axtarmaq lazımdır.

İlk növbədə, onun səbəblərindən biri kifayət etməyən natamam qidalanma ola bilər. Kökəlmək istəyənlər öz qida rasionuna ciddi nəzarət etməlidir, amma bu o demək deyil ki, çəkinin artırılmasına gətirib çıxaran yağlı və şirin qidalara üstünlük verilməlidir. Nəticədə kökəlmək arzusu sağlamlıq problemlərinin yaranmasına aparıb çıxara bilər.

Qida hər zaman kalorili, keyfiyyətli və faydalı olmalıdır. Kökəlmək üçün nizamsız qida qəbuluna başlamaq, necə deyərlər, daşdan yumşaq nə varsa dişə çəkib həzm etmək yalnız qarında şişkinlik meydana gətirir.

Kökəlmək üçün hər gün üç əsas və üç ara qida qəbulu, yeməkdən əvvəl gəzmək, qaçmaq və idman etmək məsləhətdir. Qidalanmadan əvvəl edilən həmin proseslər həm iştahanı açır, həm də sağlam kökəlməyə kömək edir. Süd və süd məhsulları, ət və ət məhsullarına üstünlük vermək, qəbul edilən karbohidratların miqdarını artırmaq lazımdır. Südə bal, bəhməz, mürəbbə əlavə edərək içmək bu sahədə çox yaxşı nəticə verir. İçkiləri yemək yeyərkən deyil, ya qida qəbulundan yarım saat əvvəl, ya da sonra qəbul etmək düzgündür. Əsasən meyvə şirələri içilməli, fındıq, fıstıq, badam və qoz ləpələri yeyilməlidir. Hər gün yumurta qəbul edilməsi də müsbət nəticə əldə etməyə səbəb olur. Əridilmiş yox, duru yağlara üstünlük verilməlidir. Məsələ burasındadır ki, kökəlmək xatirinə çoxlu yağ yemək olmaz, çünki yağla artan çəki sağlamlıq üçün çox zərərlidir və xarici görünüşdə də uyğunsuzluq yaradır.

Bütün bunlarla yanaşı, kökəlmək üçün kifayət qədər yatmaq və dincəlmək də vacibdir. Düzgün yuxu rejimi və açıq havada gəzmək də məqsədə çatmaqda kömək edir. Ayda 2 kiloqram çəki artımı uğurlu nəticə hesab edilir.

AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ 160 İLLİYİ ƏRƏFƏSİNDƏ TƏSVİRİ İNCƏSƏNƏT MÜSABİQƏSİ KEÇİRİR

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi 160 illik yubileyi ərəfəsində gənc rəssamlar üçün "Gəmiçilik - 160", "Mənim Xəzərim", "Dəniz cəsurları sevir" mövzularında təsviri incəsənət (rəngkarlıq, heykəltəraşlıq, qrafika) müsabiqəsini elan edir.

QAYDALAR

Təşkilatçı

Müsabiqə 2018-ci ildə 160 illik yubileyini qeyd edəcək Respublikanın qocaman müəssisəsi olan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi tərəfindən (bundan sonra - Təşkilatçı) təşkil olunur.

Məqsəd

Xəzər dənizçilərinin çətin və spesifik əməyi ilə geniş auditoriyanı yaxından tanış etmək;

Xəzəri əlverişli su yolu, zəngin təbii sərvət qaynağı, gözəl mənzərələr məkanı kimi tərənnüm etmək və qiymətli ekosistem kimi qorunmasının vacibliyini ön plana çəkmək;

Rəssamları dənizçilərin fədakar əməyi ilə dərindən tanış olmağa stimullaşdırmaq;

Gənc və istedadlı rəssamları dəstəkləmək və onların işi ilə geniş auditoriyanı yaxından tanış etdirməkdir.

Müsabiqədə iştirak etmək üçün şərtlər

İştirakçılar üçün yaş həddi 17-dən 35-dək müəyyənləşdirilmişdir.

Müsabiqəyə təqdim edilmək üçün hazırlanmış rəsm əsəri böyük hissədə minimum 50 santimetrdən az olmamalıdır.

Müsabiqə üçün işlər avqustun 20-dək Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə təqdim olunmalıdır.

Müsabiqə üçün əsərlərin elektron variantda fotoşəkli mütləqdir.

Müsabiqə üçün əsərlərin fotoşəkillərini çəkərkən paspartu və çərçivədən istifadə edilməlidir.

İştirakçı özü haqda qısa məlumatı və əlaqə telefonunu göstərməklə əsərlərin fotolarını aşağıda göstərilən email ünvana yollamalıdır.

Email: *resmmusabiqesi@acsc.az*

Müsabiqənin keçirilmə müddəti

Əsərlərin qəbulu 20 may 2018-ci ildən başlayaraq 20 avqust 2018-ci il tarixinədək davam edəcək.

Tələblər

Əsərlərin fotoşəkilləri maksimum dərəcədə keyfiyyətli və JPG formatında olmalıdır.

İştirakçı müsabiqəyə yalnız bir mövzu üzrə və müvafiq olaraq bir ədəd iş təqdim edə bilər.

Əsərlərdə müəllifin imzası olmalıdır.

Seçim prossesi

Birinci mərhələdə təqdim olunan əsərlər eyni vaxtda olmaqla Facebook (Azerbaijan Caspian Shipping Company / Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi , link- https://www.facebook.com/Azerbaijan.Caspian.Shipping.Company/) səhifəsində sentyabrın 1-dən 15-nə kimi açıq səsverməyə çıxarılacaq.

İkinci mərhələdə müsabiqədə iştirak edəcək əsərlər Azərbaycan Respublikasının Rəssamlıq Akademiyası, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin nümayəndələrindən ibarət münsiflər heyətinə təqdim olunacaq və onlar tərəfindən qiymətləndiriləcək.

Ümumi müsabiqənin qalibləri Facebook səsverməsinin nəticələri və münsiflərin rəyi ilə müəyyən olunacaq.

Şəffaflığın təmin edilməsi üçün əsərlər səsverməyə kodlaşdırılmış formada çıxarılacaq.

Müəlliflik hüququ

Əsərlərə görə hüquq yalnız onların müəlliflərinə məxsusdur. Təşkilatçı isə əsərlərin bukletini çap etmək, onları müxtəlif tədbirlərdə sərgiləmək, fotoşəkillərini tanıtım materiallarında, eyni zamanda sosial şəbəkələrdə istifadə etmək hüququna malikdir. Təşkilatçı təqdim olunan rəsm əsərlərinin fotoşəkillərini təkrar istifadə etmək və sürətini çıxartmaq hüququnu özündə saxlayır.

Əsərlərin təqdimatı

Müsabiqəyə təqdim olunan əsərlərin sərgisi təşkil olunacaq.

Təqdim olunan əsərlərdən ibarət kataloq çap olunacaq.

Sərgidə qaliblər mükafatlandırılacaq.

Mükafatlandırılma

"Rəngkarlıq" nominasiyası üzrə:
1-ci yer - 2000 AZN
2-ci yer - 1000AZN
3-cü yer - 500 AZN

Həvəsləndirici yerlər
4-cü yer - 200 AZN
5-ci yer - 100 AZN

"Heykəltəraşlıq" nominasiyası üzrə:
1-ci yer - 2000 AZN
2-ci yer - 1000AZN
3-cü yer -500 AZN

Həvəsləndirici yerlər
4-cü yer - 200 AZN
5-ci yer - 100 AZN

"Qrafika" nominasiyası üzrə:
1-ci yer - 2000 AZN
2-ci yer - 1000AZN
3-cü yer - 500 AZN
Həvəsləndirici yerlər
4-cü yer - 200 AZN
5-ci yer - 100 AZN

Son müddəa

Müsabiqədə iştirakın özü avtomatik olaraq müəllifin bu QAYDALAR-ın müddəaları ilə tam razılaşdığını bildirir.

Əlaqə

Tel: (+99412) 404 37 00
(daxili: 12 46, 12 45)
Ünvan: AZ 1029, Azərbaycan Respublikası, Bakı şəhəri, Heydər Əliyev pr-ti,152
Email: *resmmusabiqesi@acsc.az*

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1631